DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 7 (312) / İYUL 2017-Cİ İL



...Azərbaycanda milli həmrəylik var. Azərbaycan cəmiyyəti vahid amal ətrafında birləşib. Bizdə olan inkişaf, sabitlik, əmin-amanlıq, əlbəttə, bu gün siz də yaxşı bilirsiniz ki, dünyanın bir çox yerlərində öyrənilir, bəzən təəccüblə qarşılanır və bunun da çox sadə səbəbi var. Çünki Azərbaycanda çox gözəl, demokratik şərait var. Azərbaycanda iqtisadi inkişaf var. Azərbaycan müstəqil siyasət apararaq həm bölgədə, həm dünyada öz mövqelərini möhkəmləndirib. Bizim təsir imkanlarımız genişlənir, böyüyür və Azərbaycan xoşniyyətli siyasət aparır. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının və Azərbaycan dövlətinin maraqları dayanır. Hesab edirəm ki, bu iki əsas amil Azərbaycanda artıq çox güclü dayaqlara malikdir. Həm sosial, həm iqtisadi, həm də xarici siyasətlə bağlı atdığımız addımlar bizə böyük uğur gətirib və dünyada Azərbaycana çox böyük rəğbət var.

Mən tam əminəm ki, hər bir ölkənin inkişafı üçün demokratiya xüsusi rol oynayır. Ölkə iqtisadi cəhətdən zəngin ola bilər, təbii resurslarla zəngin ola bilər, amma əgər cəmiyyətdə gözəl ab-hava, azadlıqlar yoxdursa, bu inkişaf yarımçıq ola bilər və ya dayanıqlı olmaya bilər. Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq. Bu da hesab edirəm ki, çox düzgün və düşünülmüş siyasətdir. Çünki əgər demokratiya baxımından inkişaf etmiş ölkələrə nəzər salsaq görərik ki, onların mütləq əksəriyyəti iqtisadi cəhətdən də inkişaf etmiş ölkələrdir. Yəni, maddi rifah, iqtisadi inkişaf, sosial inkişaf demokratik inkişaf üçün əsas şərtdir.

Azərbaycanda həm demokratik, həm də sosial-iqtisadi inkişaf paralel gedir. Buna görə hesab edirəm ki, bizim cəmiyyətimizdə islahatlar təkamül yolu ilə aparılır və dərinləşir. Siyasi və iqtisadi islahatlar daha da dərinləşməlidir. Söz azadlığı Azərbaycanda tam təmin edilibdir, heç bir məhdudiyyət yoxdur. Mənə verilən son məlumata görə, Azərbaycan əhalisinin təxminən 80 faizi internet istifadəçisidir. Belə olan halda söz azadlığı ilə bağlı heç bir problem ola bilməz. Düzdür, bəzi hallarda bizi bəzi qeyri-hökumət təşkilatları tənqid edir, hətta ittiham edirlər. Amma bu ittihamların heç bir əsası yoxdur. Bu, sadəcə olaraq qərəzli mövqedir. Bunun səbəbi də bəllidir. Amma real vəziyyətə baxdıqda biz hamımız görürük ki, Azərbaycanda söz azadlığı və bütün başqa azadlıqlar tam təmin olunur. Sərbəst toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı, vicdan azadlığı, söz azadlığı, mətbuat azadlığı Azərbaycanda təmin olunur və təmin olunacaqdır...

*Prezident İlham Əliyevin jurnalistlər üçün tikilmiş növbəti binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimindəki nitqindən*
*Bakı şəhəri, 20 iyul 2017-ci il.*



"İSLAM HƏMRƏYLİYİ VƏ MEDİA"

Səh. 3



"İSLAM HƏMRƏYLİYİ VƏ AİLƏ DƏYƏRLƏRİNİN TƏBLİĞİ"

Səh. 3



"Azərbaycanda din siyasi faktora çevrilə bilməz"

Səh. 4



LERİKDƏ İSLAM HƏMRƏYLİYİ MÖVZUSUNDA REGİONAL KONFRANS KEÇİRİLİB

Səh. 6

Dövlət-din münasibətlərinin mükəmməl Azərbaycan modeli



Səh. 8



"İSLAM HƏMRƏYLİYİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN FƏALİYYƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ"

Səh. 10

## Dövlət Komitəsində bu ilin 6 ayının yekunlarına həsr olunan kollegiya iclası keçirilib

İyulun 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. İclasda Kollegiya üzvləri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

İclasda çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Komitə cari ilin birinci yarısında vəzifəsindən irəli gələn funksiyaların həyata keçirilməsi istiqamətində mövcud qanunvericiliyi, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutaraq, milli və dövlətçilik maraqlarının qorunması yolunda fəaliyyətini davam etdirib. Dini durumun öyrənilməsi, dini icmalarla işin gücləndirilməsi, radikal dini cərəyan və təriqətlərin qanunazidd əməllərinin aşkarlanması ilə bağlı tədbirlər görülüb. Din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasına qarşı mübarizə mümkün vasitələrlə davam etdirilib, bu istiqamətdə qabaqlayıcı, profilaktik və maarifləndirmə işləri aparılıb.

Mübariz Qurbanlı vurğulayıb ki, Komitənin əsas fəaliyyəti dini etiqad və vicdan azadlığını təmin etmək, dini qurumları dövlət qeydiyyatına almaq, dini radikalizm və ekstremizmlə mübarizə çərçivəsində dini maarifləndirmə işini təşkil etmək, dini qurumlarla əməkdaşlığı genişləndirmək, Azərbaycanın zəngin multikultural ənənələrini ölkə daxilində və beynəlxalq aləmdə təbliğ etmək istiqamətində olub.

Eyni zamanda, Dövlət Komitəsi fəaliyyətini aidiyyəti orqanlarla koordinasiya edərək, hüquq-mühafizə, yerli icra hakimiyyəti orqanları, digər aidiyyəti dövlət qurumları, eləcə də Qafqaz Müsəlmanları İdarəsi (QMİ) və başqa dini mərkəzlərlə yaxından əməkdaşlıq edib.

Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplə-

davamı səh. 2

# Dövlət Komitəsində bu ilin 6 ayının yekunlarına həsr olunan kollegiya iclası keçirilib

əvvəli səh. 1

rindən olan milli-mənəvi dəyərlərimizin təbliğinə dövlət qayğısını önə çəkən Komitə sədri bildirib ki, cari ilin 6 ayı ərzində ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinə dair Tədbirlər Planına müvafiq olaraq bu istiqamətdə çoxsaylı tədbirlər keçirilib.

İclasda Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı hesabat məruzəsi ilə çıxış edib. O qeyd edib ki, Dövlət Komitəsi tərəfindən 2017-ci ilin 6 ayı ərzində ölkədə dini durumun öyrənilməsi, təhlil olunması, bu sahədə məlumat bazasının zənginləşdirilməsi prosesi davam etdirilib. Dini icmaların fəaliyyətinə dəstəyin gücləndirilməsi, radikal dini cərəyan və təriqətlərin ölkə ərazisində fəaliyyətinin qarşısının alınması üçün maarifləndirmə işlərinin aparılması ilə bağlı tədbirlər həyata keçirilib.

S.Salahlı bildirib ki, ölkə ərazisində 210-u Naxçıvan Muxtar Respublikasının payına düşməklə 2246 məscid mövcuddur. 727 məscidin dini icması Dövlət Komitəsində rəsmi dövlət qeydiyyatından keçib.

Qeyd olunub ki, 2017-ci ilin yanvar-iyun aylarında dini qurumların dövlət qeydiyyatına alınması prosesi davam etdirilib, onların ümumi sayı 767-yə çatdırılıb, o cümlədən 10 İslam Kolleci Dövlət Komitəsində qeydiyyata alınıb. İndiyədək dövlət qeydiyyatından keçmiş dini qurumlardan 739-u İslam, 28-i qeyri-islam təmayüllüdür. Sonunculardan 17-si xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru dini icmasıdır.

Hesabat dövründə respublikada dini təhsillə bağlı vəziyyətin öyrənilməsi, dini təhsil müəssisələri ilə əməkdaşlığın qurulmasının təmin edilməsi, dini təhsillə əlaqəli proseslərin izlənilməsi, müqəddəs kitabları öyrənmə kurslarının fəaliyyətinə nəzarətin həyata keçirilməsi istiqamətində işlər davam etdirilib. Belə ki, respublika üzrə 161 ünvanda dini kursların təşkili qeydə alınıb. Onlardan 9-u istisna olmaqla, hamısı məscidlərdə təşkil edilən Quran kurslarıdır. Ümumilikdə respublika üzrə 204 kurs fəaliyyət göstərir ki, onlardan 140-ı oğlan, 64-ü isə qız tələbələr üçün nəzərdə tutulub.

Ölkədə dini duruma mənfi təsir göstərə biləcək zərərli dini təyinatlı ədəbiyyatın aşkarlanması, siyahısının hazırlanması və təkmilləşdirilməsi sahəsində iş davam etdirilib. Ümumilikdə idxalla bağlı 2017-cı ilin yanvar-iyun ayları ərzində Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında 897 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 39 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Ölkədə nəşr olunmaq məqsədilə təqdim edilən 139 adda dini ədəbiyyata baxılaraq, onlardan 3-nün çapı məqsədəuyğun sayılmayıb. 2017-ci ilin müvafiq dövrü ərzində 7 ixtisaslaşdırılmış satış məntəqəsinin fəaliyyətinə razılıq verilib.

Səyyad Salahlı bildirib ki, müvafiq dövr ərzində Dövlət Komitəsi tərəfindən dini radikalizm və ekstremizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, həmçinin, radikalizmə və fanatizmə alternativ kimi ənənəvi İslamın dirçəldilməsi, hərtərəfli maarifçilik işini özündə ehtiva edən kompleks işlərin həyata keçirilməsi istiqamətində dini maarifləndirmə tədbirləri respublikanın bütün bölgələrində yerli icra hakimiyyəti orqanları, qeyri-hökumət və gənclər təşkilatları, ziyalılar, din xadimləri və dini icmaların iştirakı ilə təşkil olunub.

Vurğulanıb ki, İlham Əliyev tərəfindən 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi barədə imzalanmış 10 yanvar 2017-ci il tarixli Sərəncama uyğun olaraq, Dövlət Komitəsi tərəfindən müvafiq dövr ərzində "İslam həmrəyliyi sülhə çağırışdır", "İslam həmrəyliyi İslamda birgəyaşayış ənənələrinə xidmət edir", "İslamda həmrəyliyə və tolerantlığa



çağırış", "Dini radikalizm İslam həmrəyliyinə təhdiddir", "İslam həmrəyliyi: tolerantlıq və İslam mədəniyyəti", "İslam həmrəyliyinin radikallığın qarşısının alınmasında oynadığı rol" və s. mövzularda respublikanın bütün bölgələrində 130-dan artıq tədbir həyata keçirilib.

Həmçinin maarifçilik işi çərçivəsində cari il ərzində "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda 13 regional konfrans, "İslam həmrəyliyinin təbliğində dini icmaların fəa-



liyyətinin başlıca istiqamətləri" mövzusunda 12 seminar-müşavirə, "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda 9 seminar-treninq təşkil olunub.

Eyni zamanda, Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Komitəsinin dini ekstremizmə qarşı mübarizəyə dair 2017-ci il üçün birgə Tədbirlər Planı çərçivəsində Bakı, Lənkəran şəhərlərində, Ağstafa, Göygöl və Salyan, Göyçay, Zaqatala rayonlarında regional müşavirələr keçirilib.

Dövlət Komitəsi ilə Təhsil Nazirliyi və Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında imzalanmış 2017-ci il üçün Fəaliyyət Planı çərçivəsində təhsil müəssisələrində 170-dən artıq, cəzaçəkmə müəssisələrində isə 8 tədbir baş tutub.

Dini icmalarda dövlətçilik və vətənpərvərlik hisslərinin gücləndirilməsi sahəsində müvafiq işlər görülüb. Belə ki, 20 Yanvar faciəsinin ildönümü ərəfəsində, Xocalı faciəsinin, eləcə də 31 mart Azərbaycanlıların Soyqırım Gününün ölkə dindarları tərəfindən qeyd olunması, bu faciələr barədə həqiqətlərin insanlara, xüsusən gənc nəslə çatdırılması üçün dini icmalarla yaxından əməkdaşlıq edilib.

Həmçinin dövlət başçısı İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamına əsasən, Prezidentin ehtiyat fondundan Dövlət Komitəsinə ayrılmış 2,5 milyon manat vəsait hesabına ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmaların təqdim etdiyi layihələrin maarifləndirmə və ideoloji baxımdan dəyərləndirilməsi həyata keçirilib və layihələrin hazırlanmasına metodiki dəstək verilib. İndiyədək İslam dini icmaları tərəfindən təqdim edilən 197 layihə maliyyələşdirilib.

Dövlət Komitəsi sədrinin birinci müavini hesabat dövründə Dövlət Komitəsi tərəfindən milli-mənəvi dəyərlərimizin təbliği və dini radikalizmlə mübarizə çərçivəsində "Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər", "World's famous muslim athletes" ("Dünyanın məşhur müsəlman idmançıları" kitabı ingilis dilində çap olub və IV İslam Həmrəyliyi Oyunlarında iştirak edən idmançılara paylanıb), "Nardaran və nardaranlılar", "Azərbaycanda Xristianlıq: keçmişdən bu günə", "Multikulturalizm: Panaseya yoxsa Alternativ", "Tolerantlıq və Multikulturalizm: Beynəlxalq sənədlər toplusu", "Azərbaycan Tolerantlığı Dünyanın gözü ilə", "İslam terroru, zorakılığı rədd edir", "Dinin siyasiləşməsi ideoloji təhdiddir", "Dünyəvi dövlətdə dini təhsil: praktika və problemlər", "XXI əsrin ən böyük bəlası: İŞİD", "Müasir dövrdə dini zəmində baş verən münaqişələr", "İslam adı altında gizlənən terror təşkilatları" adlı kitab və broşürlərin nəşr olunduğunu diqqətə çatdırıb.

Dini qurumlarla iş üzrə şöbənin müdiri Əliheydər Zülfüqarov isə Ramazan ayının yekunları barədə məlumat verib. Bildirib ki, Dövlət Komitəsi Ramazan ayı ilə bağlı ardıcıl tədbirlərin həyata keçirilməsi, eyni zamanda ay boyunca dini durumun nəzarətdə saxlanılması, məscid və ziyarət-gahlarda mütəmadi monitorinqlərin aparılması istiqamətində müvafiq işləri davam etdirib. Ramazan ayından öncə əsas məscidlərin axund və imamları, habelə, dini icmaların sədrləri ilə müvafiq söhbətlərin aparılıb, hər bir bölgənin yerli xüsusiyyətləri nəzərə alınmaqla qabaqlayıcı tədbirlər görülüb.

Ramazan ayı boyunca icra olunan ibadətlərin vaxtları ilə bağlı Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanası ilə birgə təqvim hazırlayıb. Dövlət Komitəsi tərəfindən dini icmalarla, din xadimləri və dindarlarla aparılan söhbətlərdə ölkə üçün sözügedən təqvimin mötəbərliyi önə çəkilib, həm şifahi, həm də mətbu orqanlar vasitəsi ilə yalnız həmin təqvimdən istifadə tövsiyə edilib.

Əliheydər Zülfüqarov qeyd edib ki, "İslam Həmrəyliyi İli"ndə Ramazan ayı ölkəmizdə yüksək səviyyədə keçirilib. Ay boyu dini icmalara dövlət tərəfindən lazımi qayğı və dəstək göstərilib. Dini icmaların sərbəst şəkildə təravih namazlarının icrası, qədr gecələrinin əhya edilməsi ilə bağlı lazımi şərait yaradılıb. Bundan başqa, Respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən və dövlət qeydiyyatına alınmış dini icmalar ziyalılar, din xadimləri, ağsaqqallar, şəhid ailələri, müharibə veteranları və Dövlət Komitəsinin əməkdaşlarının iştirakı ilə iftar süfrələri ətrafında dini maarifləndirici tədbirlər keçiriblər. Qeyd olunan bütün tədbirlərdə dindarlarla söhbətlər aparılıb, ümumi həmrəylik, vəhdət mühiti yaradılıb.

Kütləvi informasiya vasitələrində Ramazan ayı ilə bağlı maarifləndirmə tədbirləri cari ildə daha yüksək səviyyədə təşkil edilib. Xüsusilə "Cəmiyyət və Din" qəzetində müvafiq məqalələr dərc olunub, həmçinin, İctimai Televiziyada Dövlət Komitəsinin müəllif proqramı olan "Din və Cəmiyyət" və Space telekanalında yayımlanan "İnam" proqramlarında Ramazan ayına həsr edilmiş mövzular müzakirə olunub.

Kollegiya iclasında eyni zamanda, Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova və Quba bölgəsi üzrə şöbənin müdiri Eynulla Nurullayevin hesabat məruzələri dinlənilib.

İclasda daha sonra cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb, təkliflər səsləndirilib.

# "İSLAM HƏMRƏYLİYİ VƏ MEDİA"

**İyulun 18-də 22 iyul – Milli Mətbuat Günü münasibəti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi və media" mövzusunda konfrans keçirilib.**

Konfransda DQİDK və Azərbaycan Mətbuat Şurasının rəhbərliyi, Milli Məclisin deputatları, din xadimləri və media nümayəndələri iştirak ediblər.

Konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransı açaraq bildirib ki, Həsən bəy Zərdabi tərəfindən əsası qoyulan Azərbaycan kütləvi informasiya vasitələri bütün Şərq ölkələrinin mediası arasında qabaqcıl yerlərdən birini tutub. Azərbaycan mətbuatı çox böyük tarixi yol keçib. Sovet dövründə də mətbuatımız inkişaf edib. Mətbuatımızın inkişafına Ulu Öndər Heydər Əliyev daim diqqət yetirib. Prezident İlham Əliyev də bu sahəni diqqətdə saxlayır.

"2017-ci il "İslam Həmrəyliyi İli" elan edilib, Azərbaycan mətbuatı həm ölkə daxilində, həm də xaricdə İslam həmrəyliyini geniş təbliğ edir. Prezidentin tapşırığı ilə İƏT-in xarici işlər nazirlərinin toplantısında İslam ölkələrinin media qurumları arasında bir təşkilatın yaranması ilə bağlı qərar qəbul ediləcək. Yəqin ki, həmin təşkilatın mərkəzi ofisi Bakıda yerləşəcək.

Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov ölkəmizdəki zərərli dini təriqətlərdən bəhs edib. Bildirib ki, bu təriqətlərin nümayəndələri sadə insanlar arasında təbliğat aparır və bu bizi narahat etməlidir. Hər kəs, o cümlədən media dini radikalizmə, ekstremizmə qarşı mübarizə aparmalıdır.

Ulu Öndər Heydər Əliyevin mətbuata çox böyük önəm verdiyini qeyd edən Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid deyib ki, Prezident İlham Əliyevin son illərdə mətbuata göstərdiyi diqqət və qayğı da bunun bariz nümunəsi və davamıdır. Dövlət Komitəsi media ilə sıx əməkdaşlıq şəraitində işləyir. Dini maarifləndirmə ilə bağlı tədbirlərin keçirilməsi və onun KİV-də əks olunması müsbət haldır. Azərbaycan bu istiqamətdə son illərdə xeyli işlər görüb. Ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması, Bakıda "IV İslam Həmrəyliyi Oyunları"nın keçirilməsi çox mühüm hadisədir. "Bu, ölkələri, insanları,



Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsi bir sıra xarici ölkələrdə "İslam Həmrəyliyi İli" ilə bağlı tədbirlər keçirəcək. İslam dünyasının həmrəyliyə daha çox ehtiyacı var və bu mövzunun mediada təbliği üçün mətbuatla sıx əməkdaşlıq edirik", - deyə Komitə sədri vurğulayıb.

Sonra çıxış edən Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov Azərbaycan xalqının həyatında mətbuatın çox böyük rol oynadığını deyib. O bildirib ki, DQİDK mediaya ən açıq qurumlardan biridir. Azərbaycan istər İslam Əməkdaşlıq Təşkilatında (İƏT), istərsə də digər qurumlarda islami dəyərləri daim yüksək qiymətləndirir, buna böyük önəm verir. Bir müddət əvvəl Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarının təşkili də İslam ölkələri arasında əlaqələri möhkəmləndirməyə xidmət edib. Çünki İslam sülh, mərhəmət dinidir.

Mətbuat Şurasının sədri qeyd edib ki, Azərbaycan mətbuatı hər zaman milli və dini dəyərlərə hörmətlə yanaşıb. "Əkinçi" qəzeti milli dəyərlərə söykənib, maariflənmənin təbliği də dini və milli dəyərlərə verilən önəmin göstəricisidir. Daha sonra nəşr edilən qəzetlərdə də bu məsələ daim ön planda olub. Hazırda da jurnalistlərimiz İslam ölkələrinə səfər edir, bu yaxınlarda İranın nümayəndə heyəti də Azərbaycana gəlib. Azərbaycanın media modeli İslam ölkələri üçün bir örnəkdir. Yaxın vaxtlarda düşüncələri bir-birinə yaxınlaşdıran, dostluq yaradan bir hadisədir. Bu mənada "İslam Həmrəyliyi Oyunları"nın böyük təsiri olub. Bu gün şəhərimizdə müxtəlif İslam ölkələrindən olan çoxlu turistlər görürük. Bu da Azərbaycan xalqının mahiyyət etibarilə mədəni və tolerant xalq olduğunu bir daha sübut edir", - deyə Rəşad Məcid vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Qəmər Cavadlı "Əkinçi" qəzetindən bu günə qədər mediada dini dəyərlərə özünəməxsus münasibət bildirildiyini qeyd edib. Diqqətə çatdırıb ki, Sovet dövründə panislamizmlə mübarizə siyasəti yeridilib. Bizim jurnalistlərimiz İslam dinini yox, onun ətrafındakı mövhumatı, xurafatçılığı tənqid ediblər. İslam dini ilə media arasında qarşılıqlı münasibətlər sistemi formalaşıb. Son illərdə dini icmaların, qurumların nəzarəti altında olan KİV-lərdə, həmçinin dövlət mediasında dini dəyərlərə çox həssas münasibət görünür. Jurnalistləri Həsən bəy Zərdabi kimi xurafata qarşı mübarizə aparmağa çağıran Qəmər Cavadlı bu mübarizədə mətbuatın köməyinə ehtiyac olduğunu deyib.

Konfransda digər çıxış edənlər milli-mənəvi, o cümlədən dini dəyərlərin, multikultural və tolerant ənənələrin qorunması və təbliği istiqamətində KİV-lərin üzərinə düşən vəzifələr barədə müzakirələr aparıblar.

Sonda Mətbuat günü ilə əlaqədar bir qrup jurnalistə mükafatlar təqdim olunub.

# "İSLAM HƏMRƏYLİYİ VƏ AİLƏ DƏYƏRLƏRİNİN TƏBLİĞİ"



İyulun 24-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) və Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi və ailə dəyərlərinin təbliği" mövzusunda konfrans keçirilib. Konfransda millət vəkilləri, dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, artıq bir neçə ildir ki, iki qurumun birgə əməkdaşlığı çərçivəsində müxtəlif layihələr həyata keçirilir. M.Qurbanlı qeyd edib ki, Azərbaycan xalqının milli, mədəni, ailə dəyərlərinin formalaşmasında İslam dininin rolu böyükdür.

Daha sonra AQUPDK-nın sədri Hicran Hüseynova çıxış edərək bildirib ki, Azərbaycan müasir, öz dini, milli köklərinə bağlı olan, eyni zamanda, tolerant, dünyaya açıq bir ölkədir. "Ümummilli Lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra digər sahələrlə yanaşı, dövlət-din münasibətləri istiqamətində də ardıcıl siyasət formalaşmağa başlamışdır. Həmin siyasətin əsas prinsipləri bu gün də aktualdır. Və ölkəmiz bu möhkəm təməl üzərində öz inkişaf strategiyasını qurmuşdur".

Komitə sədri diqqətə çatdırıb ki, Prezident cənab İlham Əliyev və Respublikanın Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən müxtəlif səviyyəli tədbirlər ölkəmizi bütün regionda və dünyada tolerantlıq nümunəsinə çevirmişdir. "Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə bağlılığından asılıdır. Bizim çox zəngin və gözəl milli-dini, mənəvi-əxlaqi dəyərlərimiz, ailə ənənələrimiz var. Və bu, ailədaxili münasibətlərin, o cümlədən, əxlaqi, mənəvi dəyərlərin formalaşmasında, uşaqlarda dərin tərbiyəvi xarakterin yaranmasında özünü göstərir".

2008-ci ildən Komitə tərəfindən Ailə bayramının qeyd olunduğunu vurğulayan Komitə sədri bildirib ki, hər il bu bayramda müxtəlif xalqların, millətlərin nümayəndələri iştirak edərək, öz adətlərini tanıdır. Bütün bunlar hökumətimizin yürütdüyü siyasətlə bərabər cəmiyyətdə, ailələrdə mövcud vəziyyəti göstərir. "Heç bir din insanları zorakılığa, xüsusilə də mədəni dəyərlərin məhv edilməsinə səsləmir. İslam dini insan hüquqlarını, xüsusilə qadın və uşaq hüquqlarını qoruyan, ailədə qarşılıqlı anlaşmanı, qadına hörmət etməyi, təhsilin vacibliyini təbliğ edən dindir".

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev çıxış edərək bildirib ki, əgər biz İslam həmrəyliyi və ailə dəyərlərindən danışırıqsa, müqəddəs Qurani-Kərimin ailəyə verdiyi dəyəri irəli çəkməliyik. "Xüsusən də ailəni tamamlayan, gücləndirən o tellər anaların üzərindədir. İslam dini qadınlara kişilərdən daha yüksək dəyər verir və islami dəyərlər üzərində qurulan ailə demokratik ailə olmalıdır".

Millət vəkili, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəbli öz çıxışında qeyd edib ki, Ailə Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə edilən bir sıra dəyişikliklər nəticəsində ölkədə erkən nikahların qarşısı qismən alınıb. Daha sonra H.Rəcəbli bəzi statistik məlumatları diqqətə çatdırıb.

Millət vəkili, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədr müavini Bəxtiyar Əliyev isə öz çıxışında Azərbaycan ailələrinin uzunömürlülüyü və ailədaxili münasibətlərin sabitliyi ilə seçildiyini diqqətə çatdırıb. "Ailə dəyərlərinin təbliği, bu sahədə maarifləndirmə işinin gücləndirilməsi böyük əhəmiyyətə malikdir".

Daha sonra DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova "İslamda ailəyə və qadına münasibət", AQUPDK-nın İnformasiya və analitik araşdırmalar şöbəsinin baş məsləhətçisi Aynur Veysəlova "Quran və qanunda ailə dəyərləri: paralel yanaşmalar" mövzusunda təqdimatla çıxış ediblər.

Tədbir Azərbaycanda ailə institutunun formalaşmasında və qorunub saxlanmasında milli və dini dəyərlərin rolu, İslamda ailəyə və qadına münasibət kimi mövzuların müzakirəsi ilə davam edib.

# "Azərbaycanda din siyasi faktora çevrilə bilməz"

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının strateq.az-a müsahibəsi (ixtisarla)***



**– Mübariz müəllim, dini şərtlər baxımından yanaşdıqda, Azərbaycanın spesifik xüsusiyyəti nədən ibarətdir?**

– Azərbaycan müsəlman dünyasında müəyyən xarakterik xüsusiyyəti olan ölkələrdəndir. İslam coğrafiyasına baxdıqda, görürük ki, planetin quru hissəsinin 19 faizi müsəlman dünyasının payına düşür. Dünya əhalisinin 25 faizi isə islam dininin daşıyıcıdır və sayına görə 2-ci yerdədir. İslam dünyasının tutduğu quru ərazi dünyanın coğrafi baxımından ən strateji məntəqələridir. Bu ərazilər eyni zamanda yeraltı və yerüstü sərvətlərə nəzarət baxımından da mühüm rol oynayır. Hazırda orta hesabla dünyada olan neft ehtiyatlarının 62, təbii qazın isə 60 faizi islam ölkələrinin payına düşür.

Bəlli olduğu kimi, İslamda müxtəlif məzhəblər və təriqətlər mövcuddur. Elə müsəlman ölkələri var ki, orada əhali yekcins məzhəbin daşıyıcılarıdır. Amma Azərbaycan tarixən elə formaşalıb ki, burada fərqli nüanslar yaranıb. Ölkə əhalisinin təqribən 70 faizə qədəri şiədir, qalan hissəsi isə sünni məzhəbinin nümayəndələridir.

Digər bir xüsusiyyət də var: müsəlman ölkələrində dinin idarəçiliyin klassik formaları mövcuddur, bizdə isə bu idarəçiliyin forması fərqlidir. Bu da tarixdən gəlir. Azərbaycan ərazisində lap əvvəldən, orta əsrlərdə belə, şeyxülislamlıq təsisatı olub. Ölkəmiz çar Rusiyasının tərkibinə qatıldıqdan sonra şeyxülislamlıq təsisatı bərpa edilib. Yəni dövlət-din münasibətləri və dini idarəçilikdə Azərbaycanın özünəməxsus bir modeli meydana gəlib. Bu model çar Rusiyası dövründə, Azərbaycan Xalq Cümhuriyyəti zamanında da qalıb. Sovetləşmə dönəmində ləğv edilsə də, 1943-cü ildə yenidən bərpa olunub. AMEA-nın prezidenti akademik Akif Əlizadənin babası Ağa Əlizadə həm Azərbaycan Xalq Cümhuriyyəti dövründə, həm də sonra sovet dövründə şeyxülislam vəzifəsini tutub.

Bizim digər müsəlman dövlətlərindən fərqimiz ondadır ki, şeyxülislamlıq modeli din-dövlət münasibətlərində bir klassik forma kimi yaşamaqdadır.

**– Belə mürəkkəb məsələdə Dini Komitə sədri kimi, Siz hansı prioritetləri əsas götürmüsünüz?**

– Mən Dini Komitəyə sədr gəldiyim zaman din-dövlət münasibətləri, dinin tarixi barədə xeyli ədəbiyyata nəzər salmalı oldum. İxtisasca tarixçi olduğuma görə, ali məktəbdə İslam dini barədə bizə keçilmiş dərslərdən, oxuduğum digər kitablardan din barədə məlumatlı idim. Mən demirəm ki, din haqqında mükəmməl bilgiyə malik idim. Xeyr. Amma öz bildiklərimin, kollektivdə çalışanların böyük əksəriyyətinin görülən hər bir işdə özünəməxsus əməyi var.

Komitə sədri olaraq bütün qurumlarla ikitərəfli əlaqələr yaratmışıq. Bu qurumlar içərisində Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə Dini Qurumlarla İş üzrə Komitəsinin birgə fəaliyyət göstərməsi çox zəruridir. Biz bütün işlərimizi onlarla koordinasiya edərək həyata keçiririk. Bu baxımdan bizim Komitənin vəzifəsi həmin dövlət-din münasibətlərinə aid dövlətin siyasətinin həyata keçirilməsinə nəzarət etməkdir.

Yəni, biz gedib məsciddə kimin necə namaz qılmasına, kimin hansı məzhəbə əməl etməsinə, xütbənin necə oxunmasına nəzarət eləmirik. Əlbəttə, xütbəni oxuyan adam məzhəblərarası qarşıdurmaya, konstitutsion quruluşa qarşı çağırışlar edirsə, biz buna reaksiya veririk və müvafiq addımlar atırıq. QMİ-yə bu barədə dərhal yazılı müraciət olunur. Belə din xadimi varsa, onun işində qalıb-qalmaması məsələsinə baxılması təklif olunur.

**– Yəni, faktiki olaraq, QMİ və Komitə birgə cavabdehlik daşıyır...**

– Azərbaycanda dövlət dindən ayıdır, amma din xadimi dövlətdən ayrı deyil. O axı ölkə vətəndaşıdır. Dövlət dinin bu və ya digər işlərinə qarışmır. Məsələn, biz vətəndaş olaraq qanunlara tabeyik, amma adət-ənənələrə əməl etməməyə görə yalnız ictimai qınağa məruz qala bilərik. Bir də var dindən gələrək adətlərimizə keçmiş və dinin özünün tələbləri... İslamın özünün vacib bildiyi tələbləri özünü müsəlman sayan şəxs yerinə yetirməlidir. Amma həmin vacibləri yerinə yetirməməyə görə, bizi kimsə ittiham edə bilməz. Azərbaycan dünyəvi dövlətdir. Məsələn, siz Ramazan ayında bir məkanda oturub yemək yesəniz, heç kim sizə heç nə deməz. Amma elə ölkə ola bilər ki, orada bu mümkün olmaz.

Fikrimcə, dövlət-din modeli getdikcə təkmilləşməlidir. Bu təkmilləşdirmə üçünsə qanunvericiliyə müəyyən dəyişikliklər etmək lazım gəlir. QMİ müxtəlif fətvalar verir. Bu fətvalar vətəndaş tərəfindən yerinə yetirilməzsə, vətəndaş məsuliyyət daşımır ki? Xeyr. Dinlə dövlətin burada təmasları var. Bu təmaslarda bir-birinin daxili işlərinə qarışmamaq durur.

Din xadimi qanuna görə siyasətlə məşğul ola, dövlət qulluğunda çalışa, seçkili orqanlara seçilə bilməz. Prezident İlham Əliyev də bu yaxınlarda keçirilmiş Ramazan süfrəsində dedi ki, din siyasətə qarışmır, biz də dinin işinə qarışmırıq. Azərbaycandakı dövlət-din modeli müstəqillik əldə olunduqdan sonra mərhum prezident Heydər Əliyev tərəfindən müəyyənləşdirilib və Konstitusiyada təsbit olunub.

**– Siz deyirsiniz, din dövlətin, dövlət dinin işinə qarışmamalıdır. Amma həm də qarışır axı... Bu gün bütün dünyada bunu görürük.**

– Din dövlətdən ayrıdır. Amma din dövlətin qoyduğu qayda-qanunlardan kənara çıxırsa, dövlət, əlbəttə, qarışır. "Din dövlətdən ayrıdır" demək odur ki, din dövlətin fundamental əsasları ilə bağlı heç hansı yönəldici qanun qəbul etmir. Amma dövlət-din münasibətlərində din dövlətin əsaslarına qarşı olursa, bu, artıq başqa məsələdir. Məsələn, İŞİD din adı altında terrorla məşğuldur. Bu zaman, əlbəttə, dövlət də, dünya da qarışacaq.

**– Siz bu posta təyin olunana qədər ölkədə din siyasətini həyata keçirilməsində bir ikitirəlik hiss olunurdu. QMİ ilə Dövlət Komitəsi arasında konfliktli vəziyyəti artıq gizlətmək də mümkün olmurdu. Siz gəldikdən sonra bu proses səngidi. Görünür, QMİ lə işləmək üçün yeni bir format tapmısınız. Fikrinizcə, bu gün əlaqələrin ən optimal yolu tapılıbmı?**

– Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında heç bir konflikt yoxdur və ola da bilməz. Hesab edirəm ki, biz çox gözəl optimal yol tapmışıq.

Dövlət Komitəsi dini maarifləndirmə, milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində QMİ ilə sıx əməkdaşlıq çərçivəsində müəyyən birgə proqramlar tərtib edir. Bu proqramlar üzrə yerlərdə vaxtaşırı konfranslar, icmalarla görüşlər keçirilir. Bu iş bundan sonra da davam edəcək. Şeyxülislam Allahşükür Paşazadə bütün Qafqazın şeyxi olaraq bu sahəyə uzun müddətdir çox səmərəli şəkildə rəhbərlik edir. Şeyxin bu sahədə böyük təcrübəsi var və beynəlxalq dini dairələrdə, dini mərkəzlərdə ona böyük hörmət edilir. Ölkəmizdə qeyri-ənənəvi dini qrupların, cərəyanların yayılmasına qarşı dayanan qurumlardan biri də məhz QMİ-dir. Bu idarə öz fəaliyyətində müəyyən addımlar ataraq ölkədə radikalizmin yayılmasının və qeyri-ənənəvi din və cərəyanların missionerliyinin qarşısını alıb.

Azərbaycanda dini siyasətdə bizim qarşımızda nə dayanır? İnsan özü də bir fikir mübadiləsi apararkən, ilk növbədə qarşıya "biz nə istəyirik?" sualı qoyulur. Dövlətimizin milli maraqları onu istəyir ki, Azərbaycanda islami dəyərlərimiz qorunsun, saxlanılsın, nəsildən-nəslə ötürülüsün. Nə üçün? Birincisi, biz müsəlman ölkəsiyik, ikincisi, İslam bizim xalqımızın nəsildən-nəslə yaşatdığı bir dünyagörüşü, həyat düsturudur. Adət-ənənələrimizə hopan, şüurumuzda yer tapmış bir dindir. Biz onu yaşatmalıyıq. Bəs bu dəyərləri yaşadarkən, bu ad altında başqa ölkələrdəki hadisələrdən nəticə çıxararaq, qabaqlayıcı tədbirlər görməliyikmi? Əlbəttə, görməliyik. Müsəlman dünyasına baxdıqda, İslam adı altında müxtəlif ölkələrdə terror, qarşıdurma, hakimiyyət davası baş verdiyini görürük. İslamın bir sıra ölkələrdə siyasiləşdirilməsi fakta çevrilib. Halbuki İslam dini dünyagörüşdür, mənəvi aləmdir, İlahinin bizə göstərdiyi yoldur. Onun da müqəddəs kitabı Qurandır. Oradakı ayələr də İlahinin bizə göstərdiyi yolun əsas qayəsidir. İslamı qəbul edən, ateist olmayan adam bunları deməlidir. Azərbaycan da müsəlman ölkəsi olduğuna görə, başqa İslam dövlətlərində İslam adı altında baş verən prosesləri və onun fəsadlarını görərək, qabaqlayıcı tədbirlər görür və görməlidir. Azərbaycanda kimsə dini – fərqi yoxdur, İslamı, Xristianlığı, Yəhudiliyi – siyasiləşdirməməlidir. Çünki din siyasət deyil. Ona görə siyasət ola bilməz ki, qanunvericilikdə bununla bağlı məhdudiyyət var. Ölkədə etnik və din ad altında siyasi partiya yaradıla bilməz. Çünki din hamıya aiddir. Bizim hamımızın qəbul etdiyimiz dünyagörüşüdür. Əgər biz din adı altında siyasi partiya yaradırıqsa, onda biz burada fərqli düşüncəyə malik olmamalıyıq. Siz partiya yaradıb adını hansısa dinlə adlandıracaqsınız və belə çıxır ki, cəmiyyətin də hamısı siz deyəni deməlidir? Belə mümkün deyil axı? Siyasi partiya məqsəd və məramı olan, onun uğrunda mübarizə aparan təsisatdır. Siz Allahın verdiyi, Qurandan, İncildən, Tövratdan gələn dəyərli fikirləri partiya olaraq irəli sürüb nəyə nail olacaqsınız? Allah yolu kitabda göstərib. Odur ki, din siyasiləşməməlidir.

Düzdür, bunu əleyhinə olanlar var. Söhbət təkcə Azərbaycandan getmir. Xristianlıqda, yəhudlikdə də bəziləri düşünür ki, belə olmalı deyil. Amma dünya miqyasında "din siyasətdən kənarda olmalıdır" fikri burjua inqilablarının ana prinsipi olub. Məhz burjua inqilabından sonra dünyada qurulan demokratik dövlətlərin heç birində din dövlətin əsaslarında dayana bilməyib. Avropada bəzi partiyaların adında din var, amma onlar dinə söykənmək məqsədi ilə yox, şərti adlardır. Yəni, teokratik partiyalar deyil. Ona görə, bizim ölkəmizdə dövlət-din modelinə uyğun olaraq siyasəti həyata keçiririk. Bunu həyata keçirərkən qarşımızda vəzifə dayanır: dindən sui-istifadəyə yol verməməliyik. Bu, dini radikalizmdə, ekstremizmdə, dini siyasiləşdirməkdə, din pərdəsi altında gizlənərək öz merkantil maraqlarını həyata keçirməkdə özünü göstərir. Buna qarşı mübarizənin yolu dini maarifləndirmədən keçir. Çünki dini ekstremist və radikallar dini təhrif edir, Quran ayələrini öz bildikləri kimi yozur, hədisləri saxtalaşdırır və bu yolla insanları din adı altında çaşdırırlar.

**– Azərbaycan cəmiyyətinin bugünkü nəslinin ataları sovet ateist sistemində böyüyüb, övladları isə dinin azad olduğu müstəqil dövlətdə... Siz dinin siyasiləşməsi təhlükəsindən danışdınız. Azərbaycanda son 100 il ərzində İslam heç vaxt siyasi faktor kimi çıxış etməyb. Son 90-cı illərin sonundan bu tərəfə dinin siyasi faktor kimi qabardılması cəhdləri mövcuddur. Komitənin müşahidələri necədir: İslamın siyasi faktor kimi**

davamı səh. 5

# "Azərbaycanda din siyasi faktora çevrilə bilməz"

əvvəli səh. 4

**Azərbaycan cəmiyyətində yeri varmı?**

– Bütövlükdə toplum olaraq din bizim ictimai-siyasi həyatımızda hegemon rol oynamır. Elə ölkələr var ki, orada siyasi və məişət həyatında din aparıcı rol oynayır. Bizim cəmiyyətimizdə bu, yalnız ateizmlə bağlı məsələ deyil. Bizdə dinin yayıldığı, İslamın tam təşəkkül tapdığı dövrdə belə, Azərbaycanın elə bölgələri olub ki, din yalnız məhdud şəkildə özünü göstərib. Məsələn, dinlə bağlı bilgi insanın dəfn mərasimi səviyyəsində olub. Ondan o tərəfə din hər hansı bir formada cəmiyyət həyatına təsir edə bilməyib. Mən o fikirdəyəm ki, kimsə Azərbaycan cəmiyyətində dindən istifadə edərək öz siyasi, merkantil maraqlarını reallaşdıra bilməz.

**– Bu əminlik sizdə hardandır?**

– Bizim cəmiyyətə hansı radikal cərəyanları ixrac edə bilərlər? Tutaq ki, vəhhabilik və aşırı şiəlik – yəni, şiəliyi dövlətin idarə modelinə çevirmək…

Vəhhabiliyə baxaq. Vəhhabilik Azərbaycanda yayıla bilər, amma kök ata bilməz. Yayılma areallа, hansısa təsirlə, ya da iqtisadi maraqla ola bilər. Azərbaycanda özünü vəhhabi adlandıran adamlarla söhbətlər etmişəm. Bu ideyaya fanatikcəsinə bağlı olan çox az sayda adam var. Amma böyük hissəsinin İslamdan, dindən bilgisi primitiv səviyyədədir. Hamımız sovet vaxtından bəri din də, namaz da, oruculuq da görmüşük. Müəyyən bilgimiz vardı. Niyə bəs bu adamlar həmin yolu davam etdirmir? Mən bir rayonda xaricdə mükəmməl dini təhsil almış sələfi ilə söhbət edirdim. O, məscid tikmək üçün sənədləri mənə vermək istəyirdi. İddia edirdi ki, rayonda olan məscidlərə etiqad uyğunsuzluğu ilə əlaqədar getmirlər. Ona dedim ki, əgər hər məzhəb və təriqətə bir məscid tikilsə, bu rayonda gərək ən azı 10 məscid tikilsin.

Dinimizdə var ki, müsəlman namaz qılmaq üçün lazım gəlsə, kilsəyə də gedə bilər. Sən məscidə get, orda öz bildiyin kimi namaz qıl. Sənə kimsə mane olmur ki? Amma sən namazı idarə etmək, camaat namazı qıldırmaq istəyirsənsə, bu, başqa məsələdir. Qanunvericiliyə görə, namazın idarə olunması rəsmi təyin olunmuş din xadimi tərəfindən həyata keçirilir. Rəsmi din xadimi isə ölkənin ənənəvi söykəndiyi dəyərlərinə uyğun olmalıdır. Siz nə qədər pul sərf etsəniz də, geniş yayılma imkanınız olmayacaq. Niyə? Çünki vəhhabiliyin Azərbaycanda kökü yoxdur. Hər xalqın keçdiyi tarixi yol var. Biz gözümüzü açıb İslama gəlməmişik ki? Biz Tanrıçılıqdan, xristianlıqdan, zərdüştilikdən keçmişik. Onların hər birinin izi qalıb. İslam bütövdür. Amma idarəçiliyində modellər fərqlidir.

Digər məsələ – Şimal bölgəsində olan ziyarətgahların sayı başqa bölgə ilə müqayisədə fərqlidir. Bunun zərdüştilikdən, tanrıçılıqdan qalanı var. Bu ərazidə Xəzər xaqanlığı olub. Xaqanlıq 3 dəfə dinin dəyişib. Ona görə sənin dövlət-din modelin sənin tarixi keçmişini, keçdiyin yolu nəzərə alır. Ölkəmizdə dini radikal qrupların genişlənməsi imkanı yoxdur. Azərbaycanda din siyasi faktora çevrilə bilməz.

**– İllərdi ki, ortada beynəlxaq gündəmi qorxuya salmış İŞİD faktoru var. Birdən-birə Azərbaycanın müxtəlif regionlarından olan gənclərin Suriyada İŞİD sıralarında döyüşməsi barədə xəbərlər gəlməyə başladı. Radikal dini təməlçilik ölkədə özünü necə yer tuta bilib? Qarşısı alınmasında hansı problemlər var?**

– Dövlət Komitəsi təkbaşına bunun qarşısını ala bilməz. Mübarizə bütün qurumlarla birgə aparılır. Xüsusilə KİV-in bizə böyük dəstəyi var. Mən həmişə jurnalistlərdən xahiş edirəm ki, ayrı-ayrı yerlərdə filan məzhəbin lideri ifadəsini yazmasınlar. Çünki şüuraltı siz onları təşviq edirsiniz. Onlar kimin lideri ola bilər? Digər tərəfdən, kiçik bir faktdan ümumiləşdirmə aparmaq olmaz.

Dini radikallizm ölkəmizdə fundamental şəkildə bizim üçün heç bir təhlükə törədə bilməz. Nə qədər çalışsalar da… Dövlət başçısı İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə tərəfindən Ramazan ayı münasibətilə verilən iftar mərasimində çıxış edərkən bu barədə deyib: "Radikalizm, terrorizm harada canlanır, harada baş qaldırır? O ölkələrdə ki, savadlılıq yoxdur. O ölkələrdə ki, ədalətsizlik mövcuddur və səfalət yaşanır. Ona görə radikalizmə qarşı ən gözəl sığorta sosial ədalətdir, maddi rifahdır, savadlılıqdır, düzgün siyasətdir. Bu amillər olan yerdə radikalizm üçün heç bir əsas yoxdur".

Azərbaycanda İŞİD-ə qatılanlara gəlincə, bəli, bunlar var. DTX-da, biz də bu rəqəmləri bilirik. Onların içində həlak olanlarının da siyahısı bəllidir. Bir çoxunu DTX-nin nə əziyyətlə geri qaytardığını da bilirik. Bununla bağlı "Fitnə" sənədli filmini çəkmişik.

Biz qapalı araşdırmalar və sorğular aparmışıq. Niyə bu terror qruplarına qoşulmağa gedib? Nəticələr bir neçə yerə bölünür: birinci, zombiləşərək müəyyən dini təlimin təsiri altına düşərək gedənlərdir. Bunlar çox azdır. İkinciləri, necə deyərlər, "səadət centlemenləri" adlandırmaq olar. Gənclərin elə yaş dövrü olur ki, onlar atalarının hərəkətlərindən xoşlanmazlar. Maksimalist olurlar. Həmin yaş dövründə onlara elə gəlir ki, bəşəriyyət üçün əvəzolunmaz şəxslərdirlər. Böyük missiya daşıyıcısıdırlar və nə isə böyük bir qəhrəmanlıq göstərəcəklər. Bu, 18-22 yaş dövrüdür. Həmin o "uğur əsgərləri" adlananlar həmin yaş qrupudur. İnsan o yaşda hər cür fədakarlığa hazır olur. Mən tədbirlərdə deyirəm ki, o yaşda olan gənclər ömrünü silaha həsr etmək istəyirsə, Qarabağımız var.

Belə insanları ələ almağın yollarını bilən təcrübəli təbliğatçılar da hazırlıqlı şəxslərdir. Onlar xaricdəki mərkəzlərdə hazırlanaraq göndərilirlər. Dəstə toplayan həmin şəxslər hər göndərdiyi adama görə qonarar alır. Onlar hər adama necə yaxınlaşmağın yolunu gözəl bilirlər.

Bir kateqoriya da maddiyyata bağlı adamlardır. Onları yüksək məbləğdə pulla aldadırlar. Məsələn, deyilər ki, orada ayda 5 min dollar pul veriləcək. Gərək o qədər avam olasan ki, mühairbə gedən bir qarışıq ərazidə ayda hesab-kitab gözləyib pul alacağına inanasan. Eynşteynin bir sözü var: "İki şeyin hüdudu yoxdur: bir kainatın, bir də insan səfehliyinin".

Azərbaycandan 900 nəfərin İŞİD-ə qoşulması deyilir. O siyahı da nisbidir. Ora gedənlər arasında maddiyyat həvəskarları üstünlük təşkil edir. Onlarla müqayisədə şəhvani hissə və fanatik inanca görə gedənlər çox azdır. Biz qabaqlayıcı tədbirlərimizi görməliyik. Təhlükə həmişə ola bilər. Terrordan da heç kim sığortalanmayıb. Amma biz işimizi görməliyik… Mübarizəmizi bütün istiqamətlərdə aparmalıyıq. Media bu işdə daima bizə kömək etməlidir. Biz Mətbuat Şurasına da məktub göndərmişik ki, TV-lərdə din sahəsində ekspert dəvət edərkən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə məsləhətləşsinlər.

Mediada din sahəsində yazan jurnalistlər ixtisaslaşmalıdır. Hərə bildiyi şeydən danışmalıdır. Mənim dindən olan bilgim ilahiyyatçının bildiyi səviyyədə deyil. Həmişə məsləhətləşirəm. Böyük toplantılarda daim mənim yanımda bir ilahiyyatçı olur. Bir söz soruşanda, cavab üçün ilahiyyatçıya söz verirəm. Elə şey var ki, mən onu bilmirəm, bilməmək eyib deyil…

**– Məşhur sovet filmində bir aforizm var: "İslam çətin cəbhədir". Kadr məsələləri həmişə müzakirə mövzusu olur. Xaricdə oxumuş tələbələrə müəyyən məhdudiyyətlər qoyulub. Maraqlıdır, 25 il ərzində ölkədə milli dini kadrların yetişdirilməsi işi necə aparılıb? Azərbaycanın özünün nufuzulu milli ruhani kəsimi formalaşa bilibmi?**

– Bizim ingilis dili, ərəb dilini bilən axundlarımız, imamlarımız var. Dini mükəmməl bilir, gözəl izahlar verirlər. Çox təəssüf ki, onları Azərbaycan cəmiyyəti hələ çox yaxşı tanıya bilmir. Onları tanıtmaq üçün bəzi işlər aparılmalıdır. Məsələn, bizim xahişimizlə "Space" TV-də "İnam" verilişi açılıb. O verilişə dini yaxşı bilən axundlar, imamlar dəvət olunur. İTV-də "Din və cəmiyyət" verilişi yayımlanır. Güclü milli kadrlarımız artıq yetişib. Onlara tam arxayın ola bilərik. QMİ ilə razılaşaraq milli dini kadrların daha təkmil hazırlığı üçün 8 əlavə mədrəsənin açılması üçün Prezidentə müraciət etdik. Prezident xeyir-dua verdi. Naxçıvanda və Gəncədə bu il açılacaq. Eyni zamanda təklif verməşik ki, Bakı İslam Universiteti dövlət dəstəyi ilə, pulsuz fəaliyyət göstərsin. Buna da nail olmaq istəyirik. Bunlar nə üçün lazımdır? Biz vətəndaşların xaricdə dini təhsil almasının əleyhinə deyilik. Bu cür yanaşma doğru olmazdı. Çünki dünyanın tanınmış dini mərkəzləri var. Əl-Əhzər kimi… İranda, Hindistanda, Türkiyədə, ərəb ölkələrində mərkəzlər var. Vaxtilə "dini hövzələr" səviyyəsində mərkəzlərin biri də Azərbaycanda olub. Amma sovet hökuməti bunu dağıdıb. Azərbaycan özü bir dini hövzə, dini mərkəz yaratmalıdır. Bu, yalnız Azərbaycanı yox, Şimali Qafqazı, Cənubi Qafqazı əhatə etməlidir. Bu, müxtəlif məzhəbləri özündə birləşdirəcək bir mərkəz olmalıdır.

Kadr hazırlığına gəlincə, müstəqillik illərində dini kadrların yaradılması ilə məşğul olunub. Mədrəsələr vardı. Amma indi mərkəzləşməyə ehtiyac var. Bakı İslam Universiteitinin, BDU-nun İlahiyyat fakültəsinin hazırladığı kadrlar aparıcı rol oynayır. Dövlət Komitənin kadrlarının 70 faizi BDU-nun və Bakı İslam Universiteinin hazırladığı kadrlardır. Onlar dini marrifləndirmənin ön cəbhəsində gedirlər. Amma hələ yetərli deyil. Qarşıda dindən sui-istifadə ilə əlaqədər böyük güclərin oynadığı oyunlardan xilas olmaq üçün biz milli ruhlu kadrlarmızı hazırlamalıyıq. Dinin müxtəlif fəsadlarını bura idxal etmək istəyənlərə qarşı milli kadrlarımızı qoymalıyıq.

**– Sizcə, indiki – dinin siyasi faktor kimi çıxış etdiyi mürəkkəb zamanda buna nə dərəcədə nail olmaq mümkündür?**

– Bunun üçün milli kadrları hazırlamaq lazımdır. Milli kadrlarımız dünyada gedən proseslərin siyasi tərəflərini mükəmməl bildikdə, o, gənclərin həmin təsirə düşməsinin qarşısını ala biləcək. Bizim azərbaycançılıq ideologiyamızı mənimsəyən jurnalist heç vaxt milli maraqlarımızı tapdalamaz. Bu, din xadiminə, siyasətçiyə də aiddir. Bizim milli kimliyimiz öndə olmalıdır, yoxsa dini kimliyimiz?

**– Bu tezis üstündə qarşıdurma illərdir davam edir…**

– Mən düşünürəm ki, indi milli kimlik öndə gəlməlidir. Niyə? Bu gün Avropa İttifaqı 28 ölkəni birləşdirir. Millilik özünü futbolda göstərir. Fransız öz komandası üçün can qoyur. Din də öz yerindədir. Amma biz imkan vermərik ki, ümməti millətin qabağına keçirsinlər.

**– Ümmət siyasəti bəzi ölkələrin ideoloji xəttinə çevrilib….**

– O ölkələr də ümmət adı altında öz milli siyasətlərini yeridirlər. Biz milli və dini kimliyimizi, əhalinin əksəriyyətinin söykəndiyi məzhəblərimizi qoruyub saxlamalıyıq. Amma bunları bir-birinə qarşı qoymalı deyilik. Bu, milli maraqlarımza ziddir. Mən Şimalda, Cənubda yaşayan əhalinin milli kimliyini, etnik kimliyini nəzərə almalıyam, etnik kimliyini aşağılayacaq fikirlər söyləməməliyəm. Biz onlarla azərbaycanlı kimi birləşmişik. Onun marağı ilə mənim marağım bir coğrafiyada birləşib. Bir dində birləşmişik. Ola bilsin, onun məzhəb fərqi var. Amma bu məzhəbləri üz-üzə qoymalı deyiləm. Ona görə də din siyasəti çox incə siyasətdir. Mən bu Komitəyə rəhbərlik edənlərin hər birinin əməyini dəyərləndirirəm. Hər biri öz zamanında özünəməxsus fəaliyyət göstərib, öz işini görüb. Heç kim onların fəaliyyətini inkar etmir. Amma mən hesab edirəm ki, Dini Komitə ilə dini konfessiyalar arasında olan məsələlərdə mətbuatın yaratdığı hay-küyün qabağını almaq lazım idi. Mən bura təzə gələndə, kimlərsə istəyirdilər yenidən bunu hansısa formaya salsınlar.

QMİ ilə biz bu işləri birgə görməsək, nə edə bilərik? Bizim əldə etdiyimiz naliyyətlər verilən dəstəklə bağlıdır. Cənab Prezidentin yüksək dəstəyini xüsusi qeyd etmək istərdim. Həmçinin Prezident Administrasiyasının, Milli Məclisin hərtərəfli dəstəyi, YAP-ın funksioneri olaraq partiyanın yerli təşkilatlarının dəstəyi qiymətlidir.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ LERİKDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün müxtəlif tədbirlər görürlər.

İyulun 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Lerik şəhərində Astara, Lənkəran və Lerik sakinlərini qəbul edib.

M.Qurbanlı və Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyev qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, böyük rəhbərin adını daşıyan Mərkəzdə Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

Qəbul zamanı 30-dan çox vətəndaşın müraciəti dinlənilib. Vətəndaşların müraciətləri əsasən dini icmaların dövlət qeydiyyatı və fəaliyyəti, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri, Quran kurslarının təşkili və s. məsələlərlə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



# LERİKDƏ İSLAM HƏMRƏYLİYİ MÖVZUSUNDA REGİONAL KONFRANS KEÇİRİLİB



***İyulun 25-də Lerik Rayon Mədəniyyət Mərkəzində "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib.***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lerik Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə keçirilən konfransda DQİDK-nın və RİH-in məsul işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə üzrə səlahiyyətli nümayəndəsi, eləcə də cənub bölgəsində fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının əməkdaşları, dini işlər üzrə komissiyanın, YAP Lerik rayon təşkilatının üzvləri, dini icma sədrləri, din xadimləri, idarə və müəssisə rəhbərləri, gənclər və ictimaiyyət təmsilçiləri iştirak ediblər.

Regional konfransın birinci panelində çıxış edən Lerik RİH başçısının birinci müavini Cəlil Baxşıyev Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyini, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını diqqətə çatdırıb. O, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

Tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlının mövzu ilə bağlı məruzəsi dinlənilib. Mübariz Qurbanlı Azərbaycanın İslam mədəni irsinin yaranması və qorunub saxlanılmasında önəmli məkanlardan biri kimi tanındığını bildirib. Komitə sədri İslam dininin xalqımızın mənəvi həyatını daha da zənginləşdirdiyini, onun həyat tərzini və birgəyaşayış normalarını müəyyən edən əsas amillərdən birinə çevrildiyini deyib.

Mübariz Qurbanlı qeyd edib ki, ölkəmizdə tarixən mövcud olan dini dözümlülük ənənələrinin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği Azərbaycan dövlətinin əsas prioritetlərindəndir. O, dövlətimizin başçısının 2016-cı ili "Multikulturalizm İli" və 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməklə həm multikulturalizmi dəyərsizləşdirən Qərb dünyasına, həm də nifaq və ixtilaf yaşayan İslam dünyasına qlobal problemə çevrilmiş dini radikalizm və fanatizm təhlükəsindən qurtulmağın mümkünlüyü mesajını verdiyini diqqətə çatdırıb.

QMİ-nin bölgə üzrə qazısı Qəni Axundzadə dövlətimizin dinə və dindarlara qayğısından, ənənəvi dini dəyərlərin tanıdılmasından, bu dəyərlərin keçdiyi tarixi mərhələlərdən danışıb.

***Lerik şəhərindəki Heydər Əliyev Mərkəzində gənclərin iştirakı ilə keçirilən konfransın ikinci panelində "Dini radikalizmlə mübarizə və gənclərin maarifləndirilməsi" mövzusunda müzakirələr aparılıb.***

Lerik Rayon Gənclər və İdman İdarəsinin sədri Natiq İsaqov məruzəsində gənc nəslin bu istiqamətdə maarifləndirilməsinin vacibliyindən bəhs edərək, gəncləri radikallığa və ekstremizmə qarşı mübarizədə bir olmağa, milli-mənəvi dəyərlərimizi qoruyub saxlamağa səsləyib.

RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Rafiq Əzizov rayonda mövcud dini durum və bu sahədə görülmüş işlər barədə ətraflı məlumat verib.



DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə çıxışlarında dini radikalizmin və ekstremizmin milli kimliyimizə qarşı yaratdığı təhdidlərdən, ənənəvi İslam anlayışının mahiyyətindən danışıblar.



DQİDK-nın sədr müavini Gündüz İsmayılov regionlarda keçirilən bu konfransların məqsədinin Azərbaycanın müxtəlif bölgələrində cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması, dini mühitdə radikallığa meyillərin səbəbinin öyrənilməsi, dəyərləndirilməsi, bu meyillərin qarşısının alınması üçün səmərəli metodların aşkara çıxarılması, bu sahədəki kompleks tədbirlərin səmərəliliyinin daha da artırılması olduğunu diqqətə çatdırıb.

Çıxışında ölkəmizdə elan olunan "İslam Həmrəyliyi İli"nin önəminə toxunan G.İsmayılov İslam həmrəyliyinin irqindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq insanları birliyə səslədiyini bildirib.

Sonda iştirakçıların mövzu ilə bağlı çoxsaylı sualları cavablandırılıb, təklif və mülahizələri dinlənilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



İyulun 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı ölkəmizdə səfərdə olan Avstriya Parlamentinin deputatları ilə görüşüb.

İki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Dövlət Komitəsinin sədri Azərbaycan və Avstriya arasında bir çox sahələrdə əməkdaşlığın getdikcə genişləndiyini qeyd edib.

Komitə sədri 4 iyul tarixində Füzuli rayonunun Alıxanlı kəndində törədilmiş qanlı hadisə nəticəsində dünya ictimaiyyətinin növbəti dəfə mülki sakinlərə qarşı erməni terrorunun şahidi olduğunu diqqətə çatdırıb.

Azərbaycanda din və məzhəb ayrı-seçkiliyinə yol verilmədən insanların dini ibadətlərini sərbəst həyata keçirdiklərini nəzərə çatdıran M.Qurbanlı dinə dövlət qayğısından danışıb. Qeyd edib ki, Prezident cənab İlham Əliyev tərəfindən mütəmadi olaraq müsəlman və qeyri-müsəlman dini icmalara maliyyə yardımı ayrılır.

Avstriya Parlamentinin deputatı Yohanes Hübner Azərbaycana səfər proqramları çərçivəsində çoxsaylı görüş keçirdiklərini bildirərək bu müddət ərzində ölkəmizi yaxından tanıdıqlarını deyib. Qonaq Azərbaycanın multikulturalizm, tolerantlıq ənənələrinə xüsusi önəm verən az sayda ölkələrdən biri olduğunu vurğulayıb və səmimi qəbula görə öz təşəkkürünü bildirib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, sədr müavini Gündüz İsmayılov, millət vəkili Çingiz Qənizadə və digər rəsmi şəxslərin iştirak etdiyi görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparılıb.

* * *

İyulun 10-da DQİDK-nın sədri Mübariz Qurbanlı Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupov və Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Usmonxon Alimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları səmimi salamlayan M.Qurbanlı Özbəkistan ilə Azərbaycan arasında tarixi kökləri olan dostluq münasibətlərinə toxunub, ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrindən danışıb.

Azərbaycanın malik olduğu nümunəvi multikultural və tolerantlıq modelindən söhbət açan Mübariz Qurbanlı qeyd edib ki, Prezident İlham Əliyev bu ənənələri daha da inkişaf etdirərək dövlət siyasətinə çevirib. Ötən ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan olunması buna bariz nümunədir.

Səmimi qəbula görə təşəkkürünü bildirən Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupov Azərbaycana ilk dəfə səfər etdiyini bildirib və qeyd edib ki, bu səfərinin Özbəkistanla Azərbaycan arasında din sahəsində əlaqələrin daha da genişlənməsinə böyük təkan verəcəyinə ümidvardır.

Görüşdə iki ölkənin din siyasətini həyata keçirən qurumlar arasında əlaqələrin möhkəmləndirilməsinin



vacibliyi və birgə tədbirlərin keçirilməsi, eləcə də qarşılıqlı maraq kəsb edən digər məsələlər barədə müzakirələr aparılıb.

Qeyd edək ki, görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, sədr müavinləri Səyavuş Heydərov, Gündüz İsmayılov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini müfti Salman Musayev, sədr müavini Rəşad Əlyarlı, Özbəkistanın Azərbaycandakı səfiri Şerzod Fayziyev və digər rəsmi şəxslər iştirak ediblər.

* * *

İyulun 17-də DQİDK sədri Mübariz Qurbanlı Gürcüstanın Yevangelik-Lüteran kilsəsinin yepiskopu Hans Yoakim Kiderlen ilə görüşüb.

Dövlət Komitəsinin sədri həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizdə yaranan multikultural mühit barədə söz açıb. Azərbaycanın tolerant ölkə olduğunu, milli-mənəvi və dini dəyərlərə böyük önəm verildiyini, dini mənsubiyyətindən asılı olmayaraq, hər kəsin azad fəaliyyəti üçün dövlət tərəfindən bütün imkanların



yaradıldığını bildirən M.Qurbanlı ölkəmizdə heç vaxt dini zəmində ayrı-seçkilik və vətəndaş qarşıdurmasının baş vermədiyini, bu sahədə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi münasibətlərin mövcud olduğunu diqqətə çatdırıb.

Səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirən Hans Yoakim Kiderlen vurğulayıb ki, bu gün dünyada dini-etnik zəmində baş verən qarşıdurmalar fonunda Azərbaycanda multikulturalizm və tolerantlıq ideyalarının inkişaf etməsi hamıya örnəkdir.

Qeyd edək ki, görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini S.Salahlı, sədr müavini S.Heydərov, Almaniyanın Azərbaycandakı səfirinin birinci katibi Paul Amann və Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının sədri Vera Nesterova da iştirak edib.

* * *

İyulun 19-da DQİDK-nin sədri Mübariz Qurbanlı Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serxan Aktorpak ilə görüşüb. Görüş zamanı Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda mövcud olan dövlət-din münasibətləri, Dövlət Komitəsinin fəaliyyəti, konfessiyalararası münasibətlərin vəziyyəti barədə məlumat verib.

Görüşdə Dövlət Komitəsi ilə birgə layihələrin həyata keçirilməsi, dini icmaların məşğulluğunun artırılması, maddi-texniki vəziyyətinin yaxşılaşdırılması və digər maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.



# Yeni qeydiyyatdan keçmiş 16 dini icmaya şəhadətnamələr təqdim olunub

Yeni qeydiyyatdan keçmiş 16 dini icmaya şəhadətnamələr təqdim edilib. Bu məqsədlə iyulun 28-də DQİDK-da keçirilən tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini, Aparat rəhbəri, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların rəhbərləri iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında Azərbaycanda dinə, tarixi-dini abidələrimizə, dini icmaların və din xadimlərinin fəaliyyətinə göstərilən qayğının əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və bu müsbət dinamikanın Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirildiyini bildirib.

Azərbaycanın təkcə iqtisadi göstəricilərinə və ictimai-siyasi sabitliyinə görə deyil, həm də dini durumun və multikulturalizmin səviyyəsi, eləcə də xalqın milli-mənəvi dəyərlərinə yüksək münasibət baxımından regionun lider dövləti olduğunu vurğulayan Səyyad Salahlı dini



icmaların cəmiyyətin mənəvi-ruhi tarazlığının saxlanılmasında böyük rola malik olduğunu qeyd edib. O bu sahədə din xadimlərinin üzərinə düşən vəzifələrdən danışıb, eyni zamanda dini icma sədrlərinə fəaliyyətlərində milli-mənəvi, ənənəvi İslam dəyərlərimizi daha geniş şəkildə ictimaiyyətə çatdırmağı, maarifləndirmə işini təkmilləşdirməyi tövsiyə edib.

Dini sahəyə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini bildirən icma sədrləri rəhbərlik etdikləri icmalarda dini sabitliyin qorunub saxlanılması, milli-mənəvi dəyərlərin təbliği istiqamətində iş aparacaqlarını deyiblər.

Sonda Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı qeydiyyat şəhadətnamələrini dini icma sədrlərinə təqdim edib.

# Dövlət-din münasibətlərinin mükəmməl Azərbaycan modeli



***Hər əsrin, hər dövrün özünəməxsus sosial-təbii problemləri və çağırışları olur. Məsələn, soyuq müharibə fonunda nüvə silahından istifadə təhlükəsi, kütləvi silahlanma, antropogen amillər səbəbindən ətraf mühitin çirklənməsi, Yer üzündə əhalinin sürətlə artması, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında uçurumun get-gedə böyüməsi, istiləşmə və s. ötən əsrin qlobal problemləri idi. Soyuq müharibə istisna olmaqla, bu qlobal problemlər hələ də aktuallığını qoruyur.***

XX əsrin sonlarından etibarən bəşəriyyət dini radikalizm və fanatizm kimi yeni bir qlobal təhlükə ilə üzləşdi. Bu təhlükənin miqyası, əhatə dairəsi, gətirdiyi qorxunc fəsadlar heç də digər qlobal təhlükələrin acı nəticələrindən geri qalmır. Müasir dünyanın elə bir regionu yoxdur ki, orada dini fanatiklər tərəfindən terror aktları törədilməsin. Artıq hər gün dini ekstremist qruplaşmalar tərəfindən tükürpərdici terror aktlarının törədilməsi barədə xəbərin eşidilməsi adi hala çevrilib. Və təəssüflər olsun ki, adətən, bu terror aktları İslam pərdəsi altında gizlənən, amma əsl İslama heç bir aidiyyəti olmayan terrorçu dəstələr tərəfindən edilir. Günümüzdə dini radikalizm o dərəcədə dəhşətli miqyasa çatıb ki, artıq dini şüarlarla çıxış edən terror təşkilatları özlərində dövlət yaratmaq gücünü və cəsarətini görürlər. İraq və Suriya ərazisində İŞİD kimi terror təşkilatlarının fəaliyyəti bunun əyani sübutudur.

Bəs bu ekstremist dini təşkilatlar, radikal dini təmayüllərin yaranma səbəbləri nələrdir? Yaxud dünyanı qaynayan qazana çevirən dini ekstremist qruplaşmaların yayılma arealı niyə getdikcə böyüyür?

Qloballaşma prosesinin sürətlə getdiyi müasir dünyamızda dini radikalizm kimi mənfi düşüncə xarici və daxili faktorlara görə intişar tapır. Xarici faktora misal kimi fövqəldövlətlərin siyasi-iqtisadi maraqlarını təmin etmək üçün dünyanın müxtəlif regionlarında, xüsusən İslam aləmində mövcud siyasi rejimlərin, siyasi sistemlərin dəyişdirilməsinə yönəldilmiş "ərəb baharı" kimi geosiyasi "eksperiment"lər aparmasını göstərmək olar. Bu planlara dini ekstremist təşkilatların yaradılması, onların logistik dəstək, maliyyə yardımı və silahla təmin olunması daxildir.

Dini fanatizm və ekstremizmin "çiçəklənməsində" xarici amillərin təsiri olsa da, dünyanın qaynar nöqtələrində baş verənləri təkcə fövqəldövlətlərin geosiyasi oyunları ilə izah etmək doğru olmaz. Çünki hər hansı ölkədə və ya bölgədə radikal dini təmayüllərin tərəfdar qazanması üçün "əlverişli şərait" olmalıdır. "Əlverişli şərait" dedikdə nə nəzərdə tutulur? Radikalizm və fanatizmin geniş yayılması üçün hansı şərait və neqativ sosial şərtlər mövcud olmalıdır? Bu sualların ən dolğun və hərtərəfli izahını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dərin məzmunlu nitqində vermişdir.

Dövlət başçısı 2017-ci il iyunun 20-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə tərəfindən Ramazan ayı münasibətilə verilən iftar mərasimində çıxış edərkən Azərbaycanda radikalizm və fundamentalizmin rəvac tapmadığını, ölkəmizdə hər hansı təhlükə mənbəyinin olmadığını bildirmiş, radikalizm və terrorizm kimi mənfi sosial halların hansı regionlarda canlandığını dəqiq göstərmişdir: "Radikalizm, terrorizm harada canlanır, harada baş qaldırır? O ölkələrdə ki, savadlılıq yoxdur. O ölkələrdə ki, ədalətsizlik mövcuddur və səfalət yaşanır. Ona görə radikalizmə qarşı ən gözəl sığorta sosial ədalətdir, maddi rifahdır, savadlılıqdır, düzgün siyasətdir. Bu amillər olan yerdə radikalizm üçün heç bir əsas yoxdur".

Çoxsaylı sosioloji tədqiqatlar göstərir ki, radikal və ekstremist meyillər, dini-etnik münaqişələr, terror aktları xurafatın, mövhumatın geniş yayıldığı, savadsızlığın və sosial bərabərsizliyin hökm sürdüyü regionlarda daha çox intişar tapır. Çünki savadsız insanlara dardüşüncəlilik xasdır, hər yeni fikir, müxtəliflik, yad mədəniyyət onların qəlbində xof yaradır, onlar özgələrin dünyagörüşünə düşmən kəsilir. Biliksiz fərdin beynini yuyub "zombiləşdirmək" və məkrli niyyətlərlə ölümə göndərmək asandır. Təhsilə əhəmiyyət verilməyən cəmiyyətlər etnik-dini münaqişələrin ağuşuna yuvarlanmağa, ideoloji işbazların oyuncağına çevrilməyə, bir sözlə, geriləməyə və məğlubiyyətə məhkumdur.

Dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi, ədalətsizlik, səfalət və buna bənzər sosial fenomenlər də dini fundamentalizmin oyanmasına gətirib çıxarır. Tarixi faktlar göstərir ki, radikal dini və siyasi ideyalar keçid dövrlərində, böhranlı anlarda, kəskin sosial təzadların mövcud olduğu toplumlarda rəğbət görür, çünki radikal təfəkkürə maksimalizm, nihilizm, ifrata qaçma, hər şeyə bədbin baxma, inkarçılıq, emosional tərəddüd xasdır. Radikalizm hər zaman mövcud sosial-siyasi vəziyyətə mənfi münasibət bəsləyir, müxalif mövqedə durur, sosial problemin tez və qısa həllinə çalışaraq "xoşbəxt gələcək", "mütləq ədalət və bərabərliyin hakim olduğu yeni dünya", "ilahi ənamlar", "cənnət meyvələri" vəd edir. Qısa müddətdə sosial vəziyyətini dəyişmək istəyən, başqa çıxış yolu görməyən və ədalətsizliklə üzləşən narazı kütlə asanlıqla belə ifrat ideyaların təsiri altına düşür, başqa yerlərdən əlləri üzüldüyündən radikallığa ümid və pənah yeri kimi baxırlar.

Dini fanatizm və radikalizmin törəmə səbəblərini nəzərdən keçirdikən sonra əminliklə deyə bilərik ki, Azərbaycanda dini fanatizm və radikalizmin dayağı yoxdur. Buna səbəb həm ölkəmizdə tarixən mövcud olan tolerant və multikultural dəyərlərin güclü olması, həm toplumumuzda dünyəvi ənənələrin möhkəm dayaqlara malik olması, həm də dini dözümlülük və sekulyar ənənələrə söykənən Azərbaycan hökumətinin apardığı düzgün və mütərəqqi siyasətdir. Sosioloji sorğular onu göstərir ki, digər müsəlman ölkələrdən fərqli olaraq, Azərbaycanda dünyəvi ənənələr güclüdür, dini təməlçilik cəmiyyətimiz üçün yaddır.

O da bir həqiqətdir ki, xalqımız milli-mənəvi dəyərlərinə, İslam ənənələrinə hər zaman hörmətlə, sədaqətlə yanaşmışdır. Azərbaycan xalqı ən çətin və ağır tarixi dövrlərdə dini ənənələrini qoruyaraq günümüzədək gətirib çıxarmışdır. Eyni zamanda, insanlarımız şəriət dövlətinin qurulmasına və şəri hökmlərin tətbiqinə çağıran, başqa inanc sahiblərinə dözümsüz yanaşan ideologiyaları qəbul etməmişlər. Bu gün də kənardan ölkəmizə idxal olunmasına çalışılan belə ideologiyalar qətiyyətlə rədd olunur. Əlbəttə, fanatik ideyaların təsiri altına düşən vətəndaşlarımız var. Lakin ölkə səviyyəsində onların sayı olduqca azdır və cəmiyyətimiz bələlərinin ardınca getməkdə deyil, onların islah olunmasında maraqlıdır.

Cəmiyyətimizdə dünyəvi dəyərlərin, liberal təfəkkürün formalaşmasında xalqımızın maarifpərvər mütəfəkkirləri böyük rol oynamışlar. XIX əsrin sonları - XX əsrin əvvəllərində yaşamış maarifçilərimiz - Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyov və xalqımızın digər görkəmli şəxsiyyətləri dövrün nadanlığını, cahilliyi, mövhumatı, xurafatı, ifrat və kor-koranə dindarlığı qamçılayaraq tərəqqiyə, elmə, müasirliyə çağırmışlar. O vaxtlar işıq üzü görən "Əkinçi", "Molla Nəsrəddin" kimi mətbu orqanların toplumumuzda dünyəvi və liberal dəyərlərin güclənməsində oynadıqları böyük rol da danılmazdır.

Onu da xüsusi vurğulamaq lazımdır ki, respublikamızda hər hansı dini fanatik təmayüllərin və ideologiyaların yayılmasına imkan verməyən əsas səbəblərdən biri də ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən düşünülmüş, müdrik, praqmatik və qətiyyətli siyasətdir. Belə ki, dini radikalizmin oyanmasına səbəb olan savadsızlıq, səfalət və ədalətsizlik kimi mənfi sosial təzahürlərin qarşısının alınması üçün Azərbaycan hakimiyyəti tərəfindən uzaqgörən və mütərəqqi addımlar atılır: təhsilin, səhiyyənin, elmin inkişafı və əhalinin sosial təminatının yüksəldilməsi sahəsində çoxsaylı işlər görülür, yüz minlərlə məcburi köçkün evlə təmin olunur, yüzlərlə uşaq bağçası və məktəb tikilir, yeni səhiyyə ocaqları açılır və s. Bir sözlə, Azərbaycan hökumətinin əhalinin sosial rifah və inkişaf səviyyəsinin artırılması istiqamətində icra etdiyi uzaqgörən layihələr cəmiyyətimizdə fundamentalist təzahürlərin, fanatik ideologiyaların tərəfdar kütləsi toplamasına imkan vermir.

Müasir Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı göz qabağındadır. Ölkə iqtisadiyyatı son 14 ildə böyük inkişaf yolu keçib. Yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə qədər azalıb. Əmək -haqları 3 dəfədən çox artırılıb, şəhər və qəsəbələrdə böyük abadlıq işləri görülüb. Bu dövr ərzində Azərbaycanda 1 milyon 600 min iş yeri açılıb, iqtisadiyyatda 3,5 dəfə artım olub. Azərbaycanın xarici borcunun aşağı olması da ölkəmizin iqtisadi göstəricilərinin yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti cənab İlham Əliyev bu ilin mayında Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışındakı nitqində bu məsələyə diqqət çəkərək demişdir: "Xarici borcumuz olduqca aşağı səviyyədədir və ümumi daxili məhsulun 20 faizini təşkil edir. Valyuta ehtiyatlarımız isə xarici borcumuzdan 5 dəfə artıqdır. Yəni, iqtisadi göstəricilərimiz həqiqətən də yüksəkdir və bu fakt beynəlxalq təsisatlar tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb. Həmin təşkilatın qiymətləndirməsinə əsasən, inkişafda olan ölkələrin inkişaf templərinə görə Azərbaycan siyahıda digər bir ölkə ilə birinci və ikinci yerləri paylaşır".

Eyni zamanda, demokratik idarəçiliyin formalaşdırılması, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin artırılması, xidmətlərin daha keyfiyyətli və müasir innovasiyalarla həyata keçirilməsi, bürokratik əngəllərin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tabeliyində "ASAN xidmət" mərkəzlərinin yaradılması dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsinə, nəzarət və qiymətləndirmənin aparılmasına, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasına, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsinə və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsinə rəvac vermişdir. Prezident İlham

davamı səh. 9

əvvəli səh. 8

Əliyevin 2012-ci il 13 iyul və 5 sentyabr tarixli fərmanları ilə yaradılan "ASAN" modellər operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıq kimi altı prinsip əsasında fəaliyyət göstərərək əhaliyə xidmət edir. Dövlət başçısının təşəbbüsü ilə yaradılmış yeni, səmərəli, müasir xidmət modeli olan "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti cəmiyyətimizdə, eləcə də beynəlxalq aləmdə təqdir olunur və bu təcrübə Azərbaycan modeli kimi böyük maraq doğurur. Təsadüfi deyil ki, Azərbaycan brendi olan "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya Parlamenti, digər təsisat və ölkələrdə yüksək qiymətləndirilir. Həmçinin bir sıra beynəlxalq qurumlar və tanınmış ekspertlər bu unikal qurumu "Azərbaycan modeli" adlandıraraq, mütərəqqi nümunə kimi qeyd edirlər.

Respublikamızda insanların firavan yaşayışı üçün həyata keçirilən layihə və planlardan, dövlət tərəfindən görülən əməli işlərdən çox danışmaq olar. Məhz dövlətimizin təhsilə verdiyi böyük önəm nəticəsində ölkə əhalisinin savadlılıq, ibtidai təhsil səviyyəsi, demək olar, yüz faizə çatmışdır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycanda on beş və yuxarı yaş aralığında olan əhalinin savadlılıq dərəcəsi 99,8 faizdir. Son on ildə ölkəmizdə 3 mindən artıq yeni məktəb istifadəyə verilmişdir.

Bununla yanaşı, ölkəmizdə tarixən mövcud olan dini dözümlülük ənənələrinin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği Azərbaycan dövlətinin əsas siyasi prioritetlərindəndir. Tolerantlıq və multikulturalizmin təbliğinə bu qədər önəm verilməsi təsadüfi deyildir. Əslində, qarşıya daha qlobal, ölkə miqyasını aşan məqsədlər qoyulmuşdur. Dövlət başçısı 2016-cı ili "Multikulturalizm ili" və 2017-ci ili "İslam həmrəyliyi ili" elan etməklə həm multikulturalizmi dəyərsizləşdirən Qərb dünyasına, həm də nifaq və ixtilaf yaşayan İslam dünyasına qlobal problemə çevrilmiş dini radikalizm və fanatizm təhlükəsindən qurtulmağın mümkünlüyü mesajını verir. Nümunə isə var: Azərbaycanın özünəməxsus dövlət-din münasibətləri modeli, xalqımızın yaşayış tərzi, respublikamızda yaşayan fərqli dinlərin və xalqların nümayəndələri arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətləri, həmçinin Azərbaycan hakimiyyətinin apardığı uğurlu siyasət.

Bəs bu fenomenal modelin özəlliyi nədir? Respublikamızda tolerant mühitin qorunmasında, multikultural ənənələrin inkişafında Azərbaycan hakimiyyətinin apardığı uğurlu siyasətin mahiyyəti və istiqamətləri nədən ibarətdir?

Bu gün ölkədə həyata keçirilən dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas və fərqləndirici xüsusiyyəti odur ki, dindarlara və onların dini hisslərinə hörmət, tolerant və multikultural dəyərlərin qorunması, inkişafı sözdə deyil, əməldədir. Məsələn, ölkə rəhbəri İlham Əliyev milli-mənəvi dəyərlərin dirçəldilməsinə, həmçinin məscidlərin, ziyarətgahların, kilsələrin, sinaqoqların inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırır, eyni zamanda, hər il müsəlman və qeyri-müsəlman dini icmalarına dövlət büdcəsindən maliyyə yardımı ayrılır, ölkədəki ibadətgahlara illik limitlə pulsuz təbii qaz verilir və s. Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan SSRİ-nin tərkibində olduğu dövrdə ölkəmizdə 17 məscid vardısa, bu gün onların sayı 2200-ə çatmışdır, eyni zamanda, ölkə ərazisində 7 sinaqoq, 14 kilsə fəaliyyət göstərir. Xalqımızın gen yaddaşından gələn tolerant və multikultural ənənələrin yaşadılması, gələcək nəsillərə ötürülməsi düşüncəsinin dövlət siyasətinin tərkib hissəsinə çevrilməsinin nəticəsidir ki, bu gün ölkədə məscidlərlə yanaşı, digər dinlərin ibadət evləri təmir və yenidən bərpa olunur, yaxud yeniləri tikilir.

Bu mənada ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti də xüsusi vurğulanmalıdır. Məhz fondun maliyyə dəstəyi ilə Xəzər rayonu, Binə qəsəbəsindəki Möhsin Səlim və İmam Rza məscidlərində, Mərdəkan qəsəbəsindəki Pirhəsən ziyarətgahı və Heydər məscidində, Buzovna qəsəbəsindəki Cümə məscidində, Gəncə şəhərindəki Şah Abbas və Həzrət Zeynəb məscidlərində yenidənqurma və əsaslı təmir-bərpa işləri aparılmışdır. Fondun gördüyü işlər təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da böyük əks-səda doğurur. Heydər Əliyev Fondunun hər bir layihəsi xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına xidmət göstərir. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi bu istiqamətdə görülmüş mütərəqqi işlərdəndir. Layihə çərçivəsində ölkədəki məscid, kilsə, sinaqoqlarda təmir-bərpa işləri aparılmışdır. Bundan başqa, Bakıda yəhudi uşaqları üçün təhsil kompleksinin istifadəyə verilməsi, Fransada bir sıra kilsənin, müqəddəs Roma katakombalarının bərpası, Həştərxanda Müqəddəs Knyaz Vladimirin abidəsinin ucaldılması da məhz ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

Bütün bunlarla yanaşı, Azərbaycan dövləti vətəndaşların vicdan azadlığının yüksək şəkildə təmin olunması üçün də hüquqi bazanı möhkəmləndirmişdir. Bu isə insanlar arasında tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsinə, bugünkü və gələcək nəslin öz tarixi keçmişindən uzaqlaşmamasına və vətəndaşların öz əqidəsini sərbəst şəkildə yaşamasına xidmət göstərir. Bunun ən gözəl örnəyi insanların mənsub olduğu dinə birgə ibadət etmək və digər dini tələbatlarını ödəmək məqsədilə təsis etdikləri dini icmanın dövlət tərəfindən qeydiyyata alınması prosesidir ki, bu baxımdan ölkəmizdə heç bir problem yaşanmır. Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan bu günədək Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 767 dini icma qeydiyyatdan keçmişdir ki, konfessional baxımdan onlardan 739-u İslam, 17-si xristian, 8-i yəhudi, 1-i krişna, 2-si isə bəhai təmayüllüdür.

Ölkədə dini durum tam sabit olsa da, bəzən kənardan edilən müdaxilələr hesabına dini fanatizm və radikalizmin yayılmasına cəhdlər edilir. Lakin bu istiqamətdə dövlət tərəfindən ideoloji, hüquqi və iqtisadi mübarizənin aparılması bu uğursuz cəhdlərin qarşısının alınmasında böyük rol oynamaqdadır. İdeoloji müstəvidə aparılan mübarizəyə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin digər dövlət qurumları və qeyri-hökumət təşkilatları, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə keçirdiyi tədbirlər ən yaxşı nümunə hesab oluna bilər. Dövlət komitəsi son zamanlar maarifçiliyin keyfiyyətinə diqqəti daha da artıraraq ölkəmizin bütün regionlarında silsilə tədbirlər həyata keçirir. Maarifləndirmə istiqamətində işlər elektron kütləvi informasiya vasitələri, mətbu orqanlar və elektron nəşrlər vasitəsilə də baş tutur. Bu məqsədlə müxtəlif ədəbiyyatlar çap olunur, dini icmalara paylanılır. Dövlət komitəsinin mətbu orqanları - "Dövlət və Din" jurnalı, "Cəmiyyət və Din" qəzeti, həmçinin İctimai Televiziyada yayımlanan və müəllif proqramımız olan "Din və Cəmiyyət" verilişi, "Space TV"dəki "İnam" verilişi əhaliyə sağlam dini bilgilərin verilməsi sahəsində fəaliyyətlərini davam etdirir. Eyni zamanda, dövlət komitəsinin sifarişi ilə hazırlanmış, dini radikalizm və ekstremizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edən "Fitnə" sənədli filmi də insanların maariflənməsində mühüm rol oynayır. Ölkənin bütün regionlarında, o cümlədən ölkəmizdəki ali təhsil müəssisələrində, orta məktəblərdə, gənclər evlərində və s. müvafiq məkanlarda nümayiş etdirilən film ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

Beləliklə, bütün sadalanan faktlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan dövləti ədalətli, əhalinin rifah və təhsil səviyyəsinin artırılmasına yönəldilmiş siyasəti, o cümlədən dini maarifləndirmə istiqamətində görülən işlər uğurla həyata keçirdiyi üçün ölkəmizdə dini fanatizm və radikalizmin vüsət almasına baza yoxdur, çünki Azərbaycan kimi təhsil səviyyəsi yüksək, kasıblıq göstəricisi aşağı və ədalətlə idarə olunan dövlətlərdə vətəndaşlar dünyəvi, demokratik, liberal dəyərlərə, mötədil dini əqidələrə üstünlük verir, fundamentalist, ifratçı, dözümsüz ideologiyalara ikrahla yanaşırlar".



**Mübariz QURBANLI,**
**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**
**"Azərbaycan" qəzeti**
**5 iyul 2017-ci il**

# Dövlət Komitəsi dini icmaların layihələrini maliyyələşdirib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən 2-si Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dini icma olmaqla daha 24 dini icmanın layihəsi maliyyələşdirilib. Bu məqsədlə iyulun 10-da DQİDK-da keçirilən tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini, Aparat rəhbəri, şöbə müdirləri və dini icmaların rəhbərləri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa uyğun olaraq dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması, tarixi-dini abidələrimizin bərpası sahəsində uğurlu yol keçib. O qeyd edib ki, Prezidentimiz cənab İlham Əliyevin Ulu Öndərin zəngin siyasi irsinə söykənən məqsədyönlü siyasətinin məntiqi nəticəsi kimi ölkəmizdə dinə dövlət qayğısı yüksək səviyyədədir.



Səyyad Salahlı çıxışında dövlət başçımızın milli-mənəvi dəyərlərimizin təbliği və təşviqi, dini maarifçilik işinin aparılması və dini qurumların fəaliyyətinin dəstəklənməsi istiqamətində Dövlət Komitəsinə, eləcə də dini icmalara maliyyə vəsaitinin ayrılması barədə imzaladığı sərəncamların əhəmiyyətinə toxunub.

Sədrin birinci müavini milli-mənəvi irsimizin, ənənəvi İslam dəyərlərinin təbliği və təşviqi, eyni zamanda dövlətçiliyimizin qorunması istiqamətində dini icmaların da üzərinə böyük məsuliyyət düşdüyünü deyib.

Səyyad Salahlı, eyni zamanda dini icma sədrlərinə rəhbərlik etdikləri icmaların milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmayan, dinlər və məzhəblər arasında qarşıdurma yaratmaq istəyən qüvvələrə qarşı mübarizə istiqamətində fəaliyyət göstərmələrini tövsiyə edib.

Qeyd edək ki, Dövlət Komitəsi tərəfindən layihələri maliyyələşdirilmiş icmalar vəsait hesabına dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği, gənclərin dini radikal təsirlərdən qorunması istiqamətində Bakı şəhərində və respublikanın regionlarında müxtəlif tədbirlər həyata keçirir, kitablar çap edirlər.

# "İSLAM HƏMRƏYLİYİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN FƏALİYYƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ"

**Balakəndə**

İyul ayı ərzində respublikanın müxtəlif rayonlarında "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirələr keçirilib. İlk belə tədbir iyulun 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Balakən Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Balakəndə baş tutub.



Tədbirdə ölkəmizdə mövcud olan tolerantlıqdan, xalqların və etnosların qarşılıqlı anlaşma şəraitində yaşamasından, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərindən, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasından, həmçinin ölkəmizdə reallaşdırılan IV İslam Həmrəyliyi Oyunlarının İslam dünyasına töhfəsindən bəhs edilib.

Giriş sözü ilə çıxış edən Balakən RİH-in başçısı İslam Rzayev rayondakı mövcud dini durum barədə məlumat verərək bildirib ki, Balakən rayonu Azərbaycanda müxtəlif xalqların, icmaların birgə yaşadığı nümunəvi bölgələrdən biridir. Diqqətə çatdırılıb ki, hazırda rayonda 28 məscid və 40 hücrə fəaliyyət göstərir. 12 dini icma Dövlət Komitəsi tərəfindən qeydiyyata alınıb.

DQİDK sədrinin birinci müavini S.Salahlı öz çıxışında din sahəsində həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri barədə məlumat verib. Natiq ölkəmizdə dini sabitliyin qorunub saxlanılması və dini maarifləndirmə sahəsində zəruri olan məsələlərə toxunaraq, din xadimlərinin üzərinə düşən vəzifələri xüsusi vurğulayıb. S. Salahlı bildirib ki, İslam dininin sağlam təməlləri əsas götürülərsə, bir çox problemli məsələlər asanlıqla öz həllini tapa bilər. Qeyd olunub ki, cəmiyyətimizdə həm dini, həm də bəşəri dəyərlərə eyni ölçüdə önəm verilir, bütün dinlərin nümayəndələrinə qarşı hörmətlə yanaşılır.

Seminar-müşavirədə çıxış edən Balakən Rayon məhkəməsinin sədri Hümbət Səlimov və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Balakən rayon qazısı İbrahim İbrahimov da bildiriblər ki, hər bir vətəndaş dini və milli dəyərlərimizi qorumalı, birgə yaşamağımıza, həmrəyliyimizə mane olan, bizi bir-birimizdən uzaqlaşdıran radikal dini düşüncəyə qarşı ayıq-sayıq olmalıdır.

**Zaqatalada**

Analoji tədbir iyulun 14-də DQİDK tərəfindən Zaqatala rayonunda keçirilib.

Zaqatala şəhəri Heydər Əliyev Mərkəzində reallaşan seminar-müşavirədə DQİDK sədrinin birinci müavini S.Salahlı, Zaqatala RİH-in başçısı Mübariz Əhmədzadə, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin əməkdaşları, Zaqatala rayonunun yerli strukturlarının rəhbərləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Zaqatala RİH-in başçısı Mübariz Əhmədzadə rayondakı mövcud dini durum barədə məlumat verib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu, bu gün Prezident İlham Əliyevin davam və inkişaf etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. RİH başçısı ölkədəki tolerantlıq mühitinin qorunub saxlanılması istiqamətində Dövlət Komitəsi tərəfindən həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətinə də toxunub.

Seminar-müşavirədə çıxışı zamanı DQİDK sədrinin birinci müavini S.Salahlı bildirib ki, Azərbaycan xalqı öz milli-mənəvi, dini dəyərlərini əsrlər boyu qoruyub saxlayıb. Xüsusilə dövlət müstəqilliyimizi bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yenidən milli-mənəvi dəyərlərimizə, o cümlədən dini dəyərlərimizə qayıdış baş verib: "Bu gün də cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün dünyada tolerant ölkə kimi tanınır. Dinlərarası münasibətlərin tənzimlənməsi, eyni zamanda dini dözümlülüyün yüksək səviyyədə mövcudluğu dövlətin siyasətinin prioritet istiqamətlərindən biridir. Bu gün biz iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan dünyada tolerantlıq modelidir. İstər məzhəblərarası, istər dinlərarası məsələlərdə dini dözümlülük nümunəsidir. Dünyanın heç bir yerində Azərbaycan qədər dini dözümlülük yoxdur".

S.Salahlı həmçinin vurğulayıb ki, Azərbaycan hüquqi dövlətdir və İslam dini bizim milli ideologiyamızın tərkib hissələrindən biridir: "Azərbaycan dövlətinin dinə qayğısı hər kəsə məlumdur. Azərbaycanda İslam dəyərlərinin inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sovetlər zamanında ölkəmizdə 17 məscid vardı. Bu gün artıq respublikamızda iki mindən çox məscid var".

Müzakirələrlə davam edən tədbir zamanı radikalizmlə mübarizədə hər bir Azərbaycan vətəndaşının, xüsusilə də ziyalılar və din xadimlərinin fəallıq göstərməli olduqları vurğulanıb.



**Ağstafada**

Daha bir seminar-müşavirə iyulun 20-də DQİDK və Ağstafa RİH-in birgə təşkilatçılığı ilə reallaşıb.

Ağstafa rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Ağstafa RİH başçısının birinci müavini Ramiz Tatarov, din xadimləri, dini icma sədrləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Seminar-müşavirəni giriş sözü ilə Ağstafa RİH başçısının birinci müavini Ramiz Tatarov açaraq bildirib ki, rayonda dövlət-din münasibətlərinin tənzimlənməsi, burada fəaliyyət göstərən dini icmalarla işin təşkili, dini ibadət və mərasimlərin keçirilməsi sahəsində mühüm təcrübə əldə edilib.

DQİDK sədrinin birinci müavini S.Salahlı isə öz məruzəsində Prezident İlham Əliyevin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə, eyni zamanda məzhəblər arasında dini tolerantlığın qorunması, həmrəyliyin təmin edilməsi və dini radikalizmə qarşı mübarizənin gücləndirilməsi sahəsində



Dövlət Komitəsi tərəfindən həyata keçirilən silsilə tədbirlərin əhəmiyyətinə toxunub. Vurğulayıb ki, keçirilən tədbir və layihələrin əsas məqsədi yeniyetmə və gənclər arasında dini maarifləndirmə işinin aparılmasıdır.

Digər çıxışlarda ölkə rəhbərliyi səviyyəsində İslama, onun mübarək bayramlarına yüksək hörmət və ehtiramın mövcud olduğu, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət nəticəsində mütərəqqi dini dəyərlərin cəmiyyətdə daha da möhkəmləndirilməsi, insanların dini etiqad azadlığının yüksək səviyyədə təminatı istiqamətində bütün zəruri addımların atıldığı qeyd olunub.

**Gədəbəydə**

İyulun 21-də isə DQİDK və Gədəbəy RİH-in birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini S.Salahlı, RİH başçısının birinci müavini Qüdrət Paşayev, din xadimləri, dini icma sədrləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qüdrət Paşayev seminar-müşavirəni giriş sözü ilə



açaraq bildirib ki, RİH başçısı yanında Dini İşlər üzrə Komissiyanın iş planına əsasən rayonun bütün kəndlərini əhatə etməklə 11 İnzibati Ərazi Dairəsi üzrə nümayəndəlikdə ictimaiyyət nümayəndələrinin, məktəb kollektivlərinin, gənclərin və dindarların iştirakı ilə seminar-müşavirələr təşkil edilib. Rayon İcra Hakimiyyəti başçısı Aparatı dini məsələlərlə bağlı hüquq-mühafizə orqanları, DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Qafqaz Müsəlmanları İdarəsi və rayonda fəaliyyət göstərən dini icmalarla qarşılıqlı əməkdaşlıq şəraitində bundan sonra da maarifləndirmə tədbirlərini davam etdirəcək.

DQİDK sədrinin birinci müavini S.Salahlı çıxışında bildirib ki, dövlət-din münasibətlərinin əsas prioritetlərindən biri ölkədə mövcud olan tolerant mühitin qorunması, müxtəlif dini konfessiyalara mənsub dini icmaların öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirməsidir. Sədrin birinci müavini ölkəmizdə milli-mənəvi və islami dəyərlərin qorunması, dini konfessiya nümayəndələrinin birlik, mehribanlıq şəraitində yaşamasının vacibliyindən danışaraq keçmişdən bizə miras qalan mütərəqqi dini ənənələrin yaşadılması və inkişafı ilə əlaqədar görülən işlər haqqında məlumat verib.

Gədəbəy rayon Ağsaqqallar Şurasının sədri Kərəm Məmmədov rayonda dövlət və din münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edib, dini radikalizmlə mübarizədə, İslam həmrəyliyinin təbliğində rayon ictimaiyyətinin, gənclərin, din xadimlərinin fəal olmalarının vacibliyindən söz açıb.

Seminar-müşavirələrin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "DİNİ RADİKALİZMƏ QARŞI MÜBARİZƏNİN BAŞLICA YOLLARI: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ"

**Siyəzəndə**

İyulun 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Siyəzən Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Siyəzən rayonu Sədan kəndində "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" adlı seminar-



treninq keçirilib.

Tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Quba bölgəsi üzrə şöbənin müdiri Eynulla Nurullayev, Siyəzən Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Balabəy Balabəyov və kənd ictimaiyyəti iştirak ediblər.

Toplantı zamanı DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov çıxışında radikalizmin yaranma səbəblərini göstərərək qeyd edib ki, dində radikallıq müxtəlif formalarda təzahür etməklə dinin əsl mahiyyətini kölgədə qoyur. Natiq Azərbaycan reallığında dini radikalizmi yaymaq istəyənlərin sərf etdikləri əməyin nəticəsiz qaldığını qeyd edib.

**Qobustanda**

Analoji tədbir iyulun 14-də DQİDK və Qobustan RİH-in birgə təşkilatçılığı ilə rayonun Nabur kənd Mədəniyyət evində keçirilib.

Tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, Qobustan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov, QMİ-nin Şamaxı və Qobustan rayonları üzrə səlahiyyətli nümayəndəsi Mərəhmət Mustafayev, Dövlət Komitəsinin əməkdaşı Namiq Talıbov, Qobustan RİH başçısının Nabur kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Vidadi Müseyibov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov radikal dini cərəyanların yaranması, təbliğat metodları haqqında geniş məlumat verərək bildirib ki, ölkəmizdə dini sahədə sabitlik hökm sürür və cəmiyyətimizin, xüsusilə də gənclərin radikal dini təsirlərdən qorunmasında hər birimizin üzərinə böyük məsuliyyət düşür.

Tədbirdə söz alan digər natiqlər dini radikalizmin fəsadları və qarşısının alınması yollarından danışaraq İslam dininin düzgün formada gənclərə çatdırılmasının vacibliyindən bəhs ediblər.

**Goranboyda**

Eyni mövzuda tədbir DQİDK və Goranboy RİH-in birgə təşkilatçılığı ilə iyulun 19-da Goranboy rayonunda keçirilib.

Tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyev, Goranboy RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Nofəl Köçərli, Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə və ictimaiyyət nümayəndələri iştirak ediblər.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdi-



ri Əliheydər Zülfüqarov radikal dini cərəyanların yaranması, təbliğat metodları və onlara qarşı mübarizənin teoloji, psixoloji və hüquqi əsasları haqqında geniş məlumat verib. Bildirib ki, ölkəmizdə dini sahədə sabitlik hökm sürür və cəmiyyətimizin, xüsusilə də gənclərin radikal dini təsirlərdən qorunmasında hər birimizin üzərinə böyük məsuliyyət düşür.

Daha sonra çıxış edən Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə dini radikalizmin fəsadları və qarşısının alınması yollarından danışaraq İslam dininin düzgün formada gənclərə çatdırılmasının vacibliyindən bəhs edib.

**Naftalanda**

Analoji tədbir iyulun 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naftalan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Naftalan şəhər Heydər Əliyev mərkəzində keçirilib.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyev, Naftalan Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Habil Abdullayev, Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkədəki dini durum, dövlət və din münasibətləri, milli-mənəvi dəyərlər barədə ətraflı məlumat verilib.

**Oğuzda**

"Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda daha bir tədbir DQİDK-nın təşəbbüsü ilə iyulun 24-də Oğuz rayonunun Kərimli kəndində keçirilib.

Seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dövlət Komitəsinin əməkdaşı Vüqar İmamquliyev, Şəki bölgəsi üzrə şöbənin əməkdaşları, Oğuz Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Ayaz Ağayev və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbirdə çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov ölkəmizdə formalaşmış dövlət-din münasibətlərindən, dini radikalizmin fəsadlarından, onun yaranma səbəblərindən, bu sahədə aparılan mübarizə üsullarından ətraflı bəhs edib. Həmçinin qeyd edib ki, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunmasına və İslam həmrəyliyi ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verilir. Dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərin təbliği, eləcə də ənənəvi İslamın dirçəldilməsi məqsədi ilə hərtərəfli maarifçilik işini özündə ehtiva edən kompleks tədbirlərin həyata keçirilməsinin zəruri olduğunu diqqətə çatdırıb.

**Balakəndə**

İyulun 25-də Balakən rayonu Qabaqçöl qəsəbəsində DQİDK-nın dəstəyi ilə keçirilən seminar-treninq də eyni mövzuya həsr olunub.

Seminarda DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dövlət Komitəsinin əməkdaşı Vüqar İmamquliyev, Zaqatala bölgəsi üzrə şöbənin əməkdaşları, Balakən Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Fariz Nəcəfov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Fariz Nəcəfov rayondakı dini durumla bağlı məruzə edib.

Daha sonra çıxış edən Əliheydər Zülfüqarov ölkəmizdə formalaşmış dövlət-din münasibətlərindən, dini radikalizmin fəsadlarından, onun yaranma səbəblərindən, bu sahədə aparılan mübarizə üsullarından danışıb. O, dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərin təbliği, eləcə də ənənəvi İslamın dirçəldilməsi məqsədi ilə hərtərəfli maarifçilik işini özündə ehtiva edən kompleks tədbirlərin həyata keçirilməsinin zəruri olduğunu diqqətə çatdırıb.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Beynəlxalq multikulturalizm yay məktəbinin növbəti günündə mühazirələr dinlənilib

Prezident İlham Əliyevin tövsiyəsi ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), UNESCO, "Erasmus+", "ALADDİN layihəsi" və Azərbaycanın Gənc Dostları Klubunun birgə təşkilatçılığı ilə keçirilən "Mədəniyyətlərarası dialoq dini və mədəni müxtəliflik kontekstində - Azərbaycanda dinlərarası harmoniya" adlı V Beynəlxalq multikulturalizm yay məktəbi iyulun 26-da Qaxda öz işini davam etdirib.

Yay məktəbinin üçüncü günü Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr Şöbəsinin müdiri Nicat Məmmədlinin "Azərbaycanda dini müxtəliflik", ABŞ Merrimack kollecinin professoru Jozef Merinin "Yaxın Şərq yəhudiləri, xristianları və müsəlmanlarının avtobioqrafik əsərlərində müqəddəs və dünyəvi elementlər" mövzularında mühazirələri dinlənilib.

Nicat Məmmədli mühazirəsində Azərbaycan ərazisində qədim zamanlardan bəri müxtəlif dini etiqadların təşəkkül tapdığını diqqətə çatdırıb. Qeyd olunub ki, SSRİ dağıldıqdan sonra Azərbaycan din sahəsində yeni mərhələyə adlayıb. Ölkəmizdə dinin təbliğinə və yayılmasına şərait yaradılıb, bütün dinlərin və etiqadların qanun qarşısında bərabərliyi Konstitusiyada təsbit olunub. Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə bir çox dini-tarixi abidələr bərpa və restavrasiya edilib, dini maarifçilik işinə xüsusi diqqət göstərilib. Bu iş hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



# PREZİDENTİN SƏRƏNCAMI UĞURLA İCRA OLUNUR

Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2017-ci ilin iyul ayı ərzində də müxtəlif bölgələrdə tədbirlər keçirilib. Cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:

**3 iyul** – Lerik rayonu Ləmərud kənd məscidi dini icmasının "İslam sülhə və həmrəyliyə aparan yoldur" layihəsi çərçivəsində Ləmərud kənd məscidində;

**4 iyul** – Xətai rayonu "Əhmədli qəsəbə məscidi" dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində;



**6 iyul** – Tovuz rayonu məscidi dini icmasının "İslam həmrəyliyində məhzəblərarası dialoqun önəmi" layihəsi çərçivəsində "Dini ekstremizm və ona qarşı mübarizə metodları" mövzusunda; Lənkəran rayonu Osakücə kənd məscidi dini icmasının "İslam həmrəyliyi müasir dövrün çağırışıdır" layihəsi çərçivəsində; Balakən rayonunun Cederovtala kəndində "İslam sülh və həmrəylik dinidir" layihəsi çərçivəsində "Dini ekstremizm və onun fəsadları" mövzusunda; Goranboy rayon Safıkürd və Tatarlı kənd məscidi dini icmasının "Dini ekstremizmin qarşısının alınmasında İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində "İslam sülh və mədəniyyət dinidir" mövzusunda;

**7 iyul** – Salyan rayonu Çuxanlı kəndi "Hacı Cəbrayıl" məscidi dini icmasının "İslam dini həmrəy və tolerant dindir" layihəsi çərçivəsində; Zaqatala rayonu Yengiyan kənd məscidi dini icmasının "İslam dininin mədəniyyətimizdəki yeri və rolu" layihəsi çərçivəsində "İslam dininin mədəniyyətimizə təsirləri" mövzusunda; Sabunçu rayonu Sabunçu qəsəbə məscidi dini icmasının "İslam həmrəyliyi dünyanı sülhə aparan yol" layihəsi çərçivəsində; Qaradağ rayonu «Səngəçal qəsəbə məscidi" dini icmasının "İslam - barışıq və həmrəylik dinidir" layihəsi çərçivəsində;



**10 iyul** – Masallı rayonu Köçəkli kənd məscidi dini icmasının "Dinimiz və mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində "İslam dini terrora qarşı" mövzusunda;

**11 iyul** – Ağdaş şəhər "Hacı İsmayıl" məscidi dini icmasının "İslam həmrəyliyi və islami dəyərlərin təbliği" layihəsi çərçivəsində "Gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğatının artırılmasında dini icmaların rolu" mövzusunda; Ağcabədi şəhər "Cümə" məscidi dini icmasının "Cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində Ağcabədi rayon Təhsil şöbəsində; Ucar şəhər "Cami" məscidi dini icmasının "Bəşəriyyətin təhdidlərdən çıxış yolu - Həmrəylik" layihəsi çərçivəsində Ucar şəhər Gənclər mərkəzində "İslamın birlik və bərabərliyə verdiyi əhəmiyyət" mövzusunda; Avaş kəndi "İmam Museyi Kazım" məscidi dini icmasının "Radikal meyillərə qarşı mübarizədə dindarların rolu" layihəsi çərçivəsində Avaş kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərimizin qorunmasında dövlət siyasəti" mövzusunda; Sabirabad rayon Bulduq kənd məscidi dini icmasında "Milli dəyərlərimizin formalaşmasında İslam dininin əhəmiyyəti" layihəsi çərçivəsində "Dini radikalizmin qarşısının alınmasında ənənəvi islami dəyərlərin rolu" mövzusunda;

**12 iyul** – Zərdab şəhər "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyi sülhə çağırışdır" layihəsi çərçivəsində "İslamın həmrəyliyə verdiyi əhəmiyyət" mövzusunda; Goranboy rayon Safıkürd və Tatarlı kənd məscidi dini icmasının "Dini ekstremizmin qarşısının alınmasında İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində "İslam həmrəyliyi gənclərin gözü ilə" mövzusunda; Zaqatala rayonu Muxax kənd məscidi dini icmasının "Keçmişdən günümüzə Azərbaycanda İslam həmrəyliyi ənənələri" layihəsi çərçivəsində "İslam qardaşlığı" mövzusunda; Xaçmaz rayonu Yalama kənd məscidi dini icmasının təşkilatçılığı ilə "Birliyimiz həmrəyliyimizdədir" mövzusunda; Lənkəran rayonu Osakücə kənd məscidi dini icmasının "İslam həmrəyliyi müasir dövrün çağırışıdır" layihəsi çərçivəsində Lənkəran rayonu Tatoba kənd sənətkarlıq klubunda "Heydər Əliyev irsi və İslam həmrəyliyi" mövzusunda; Şəki rayon Kiçik Dəhnə kənd məscidi dini icmasının "Cəmiyyətimizi dini-radikal təsirlərdən qoruyaq" layihəsi çərçivəsində "Dini radikalizmin gənclərin vətənpərvərlik ruhuna mənfi təsiri" mövzusunda; Qobustan rayonu Ərəbşalbaş kəndi "Hacı Gülməli" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində; Lənkəran rayonu Balıqçılar qəsəbə "Xanım Zəhra" məscidi dini icmasının "İslam həmrəyliyi sülh və inkişafa təminatdır" layihəsi çərçivəsində "Heydər Əliyev irsi və İslam həmrəyliyi" mövzusunda;



**13 iyul** – Lənkəran rayonu Bəlləbur kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülh və birliyə töhfə kimi" layihəsi çərçivəsində "Heydər Əliyev irsi və İslam həmrəyliyi" mövzusunda; Neftçala rayonu Aşağı Qaramanlı kəndi "Abbas" məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində; İmişli rayonu Cəfərli kənd məscidi dini icmasının "İslamda sülh və həmrəylik çağırışları" layihəsi çərçivəsində "İslam həmrəylik və birlik nümunəsidir" mövzusunda; Oğuz rayon Bayan kənd məscidi dini icmasının "Dini radikalizm İslam həmrəyliyinə və birgəyaşayış ənənəsinə təhdiddir" layihəsi çərçivəsində;

**14 iyul** – Ucar şəhər "Cami" məscidi dini icmasının "Bəşəriyyətin təhdidlərdən çıxış yolu - Həmrəylik" layihəsi çərçivəsində "İslam təfriqə və xurafata yox deyir" mövzusunda; Lerik rayonu Ləmərud kənd məscidi dini icmasının "İslam sülhə və həmrəyliyə aparan yoldur" layihəsi çərçivəsində "Heydər Əliyev irsi və İslam həmrəyliyi" mövzusunda; Abşeron rayonu Güzdək qəsəbə "Rəsulullah" məscidi dini icmasının "İslam həmrəyliyi - dini radikalizmdən xilas yolu" layihəsi çərçivəsində "İslamda birgəyaşayış ənənəsi" mövzusunda; Sumqayıt "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyi – düşüncə tariximizin dünəni və bu günü" layihəsi çərçivəsində; Quba şəhəri "Ərdəbil" məscidi dini icmasının "Ənənəvi İslam və həmrəylik" layihəsi çərçivəsində; İmişli rayonu Xoşçobanlı kənd məscidi dini icmasının "İslam həmrəylik, bərabərlik dinidir" layihəsi çərçivəsində "İslam həmrəyliyinin dini radikalizmə qarşı mübarizədə rolu" mövzusunda; Ağdam rayonu Xındırıstan kənd məscidi dini icmasının "Heydər Əliyev irsi və İslam həmrəyliyi" layihəsi çərçivəsində Ağdam rayonu Zəngişalı kənd məscidində; Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "İslamda birlik və bərabərlik çağırışları" mövzusunda;



**17 iyul** – İmişli rayonu Şahverdili kənd "Əhli-beyt" məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və müasirlik" layihəsi çərçivəsində "Gənclərin radikal təsirlərdən və zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin əhəmiyyəti" mövzusunda; Şəki rayonu Aydıbulaq kənd "Hacı Mir Ələkbərağa" məscidi dini icmasının "İslam dini sülh, həmrəylik və vəhdət dinidir" layihəsi çərçivəsində;

**18 iyul** – Zərdab şəhər "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyi sülhə çağırışdır" layihəsi çərçivəsində "İslam sülh dinidir" mövzusunda; Masallı rayonu Köhnə Alvadı kənd məscidi dini icmasının "İslam həmrəyliyi radikalizm və ekstremizmə qarşıdır" layihəsi çərçivəsində "Dinimiz radikalizm və ekstremizmə "yox" deyir" mövzusunda; Zaqatala rayonu Yengiyan kənd məscidi dini icmasının "İslam dininin mədəniyyətimizdəki yeri və rolu" layihəsi çərçivəsində "İslam mədəniyyəti: keçmiş, bu gün və sabah" mövzusunda; Cederovtala kənd dini icmasının "İslam sülh və həmrəylik dinidir" layihəsi çərçivəsində Balakəndə "İslam dünyasında dini ekstremizmin yaranma səbəbləri" mövzusunda; Qəbələ rayonu Hacıalılı kənd məscidi dini icmasının "Dini və milli müxtəlifliyin vəhdətində İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində; Ağcabədi şəhər "Cümə" məscidi dini icmasının "Cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində "Multikulturalizmin Azərbaycan nümunəsi" mövzusunda

**19 iyul** – Salyan şəhəri Mərkəzi Hacı Tağı məscidi dini icmasının "İslam dinində tolerant və multikultural dəyərlər" layihəsi çərçivəsində; Şəki rayonu Böyük Dəhnə kənd orta məktəbində Suçma kənd məscidi dini icmasının "İslam dinində mövhumata və xurafata yer yoxdur" layihəsi çərçivəsində; Ağdam rayonu Xındırıstan kənd məscidi dini icmasının "Heydər Əliyev irsi və İslam həmrəyliyi" layihəsi çərçivəsində;

**20 iyul** – Yardımlı rayonu Avaş kəndi "İmam Museyi




Kazım" məscidi dini icmasının "Radikal meyillərə qarşı mübarizədə dindarların rolu" layihəsi çərçivəsində Avaş kənd tam orta məktəbində "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" mövzusunda; Sabirabad rayon Həşimxanlı kənd məscidi dini icamasının "Multikultural cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində "Dini radikalizmə qarşı mübarizədə tolerantlıq və multikultural ənənələrin rolu" mövzusunda; Masallı rayonu Ərkivan qəsəbə

"Həzrət Əli" məscidi dini icmasının "Radikalizm və ekstremizmə qarşı mübarizədə İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində "Dinimiz zərərli vərdişlərə "yox" deyir" mövzusunda;

**21 iyul** – Abşeron rayonu Digah qəsəbə məscidi dini icmasının "Ailə milli-mənəvi dəyərlərin daşıyıcısıdır" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclər" mövzusunda; Xaçmaz rayonu Yalama kənd



məscidi dini icmasının təşkilatçılığı ilə "Birliyimiz həmrəyliyimizdədir" mövzusunda;

**25 iyul** – Ağcabədi şəhər "Cümə" məscidi dini icmasının "Cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində Ağcabədi Pedaqoji Kollecində "Multikultural dəyərlərin tarixi kökləri" mövzusunda; Cəlilabad rayonu Zərbiəlli kəndi "İmam Hüseyn" məscidi dini icmasının "İslam həmrəyliyi radikalizmə qarşı mübarizədə vasitə kimi" layihəsi çərçivəsində "Dinimiz radikalizmə qarşı" mövzusunda; Zərdab şəhər "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyi sülhə çağırışdır" layihəsi çərçivəsində "İslamda sosial ədalət və həmrəylik" mövzusunda;

**26 iyul** – Ağdam rayonu Xındırıstan kənd məscidi dini icmasının "Heydər Əliyev irsi və İslam həmrəyliyi" layihəsi çərçivəsində; Neftçala rayonu Aşağı Qaramanlı kəndi "Abbas" məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində; Zaqatala rayonu Muxax kənd məscidi dini icmasının "Keçmişdən günümüzə Azərbaycanda İslam həmrəyliyi ənənələri" layihəsi çərçivəsində "Zaqatala rayonunda İslam həmrəyliyi ənənələri" mövzusunda; Qobustan rayonu Ərəbşalbaş kəndi "Hacı Gülmalı" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı seçkiliyinə qarşı" layihəsi çərçivəsində; Ağdaş rayon Qəribli kənd məscidi dini icmasının "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" layihəsi çərçivəsində Ağdaş rayon Qəribli kənd tam orta məktəbində "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda; Ağstafa şəhəri İmam Əli adına "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" layihəsi çərçivəsində "İslam həmrəyliyi günün tələbidir" mövzusunda; Lənkəran rayonu Bəlləbur kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülh və birliyə töhfə kimi" layihəsi çərçivəsində;

**27 iyul** – Şamaxı rayonu Mədrəsə qəsəbə məscidi dini icmasının "İslam sülh və həmrəylik dinidir" layihəsi çərçivəsində "İslamda həmrəylik" mövzusunda; Yevlax rayon Yenicə kənd məscidi dini icmasının "Azərbaycan İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilir" layihəsi çərçivəsində "İslam həmrəyliyi və müasirlik" mövzusunda; Sabirabad rayon Bulduq kənd məscidi dini icmasının "Milli dəyərlərimizin formalaşmasında İslam dininin əhəmiyyəti" layihəsi çərçivəsində "Milli kimliyimiz milli-mənəvi dəyərlərimizin bir parçasıdır" mövzusunda baş tutub.

Dindarların, dini icma sədrlərinin, ziyalıların, şagird və müəllimlərin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) mərkəzi aparatının və bölgə şöbələrinin, şəhər və rayon icra hakimiyyəti orqanlarının əməkdaşları, ilahiyyatçılar və digərləri məruzələrlə çıxış ediblər. Çıxışlarda dini maarifləndirmə sahəsində görülən tədbirlərin və bu istiqamətdə keçirilən mütəmadi görüşlərin əhəmiyyətinə toxunulub. Dövlətin dindarlara qayğısından və onların ibadəti üçün hər cür şəraitin yaradılmasından danışan məruzəçilər tarixən ölkəmizdə məzhəblər arasında



həmrəylik, dostluq, qardaşlıq münasibətlərinin hökm sürdüyünü vurğulayıblar. Həmçinin Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının əhəmiyyəti qeyd olunub və bildirilib ki, İslam dini insanları sülhə, həmrəyliyə və humanizmə dəvət edir. Məruzəçilər eyni zamanda dini radikalizm, onun cəmiyyət və bəşəriyyət üçün fəsadları haqqında və DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirləri barədə məlumat veriblər və İslam dininin elmə, təhsilə verdiyi önəmin əhəmiyyətindən danışıblar.

Tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb və Dövlət Komitəsi tərəfindən nəşr olunan dini təyinatlı maarifləndirici ədəbiyyatlar paylanılıb.

# "İSLAM HƏMRƏYLİYİ İLİ" ÇƏRÇİVƏSİNDƏ TƏDBİRLƏR KEÇİRİLİB

Azərbaycanın tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verdiyi nəzərə alınaraq Prezident İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən bu il Azərbaycanda "İslam



Həmrəyliyi İli" elan olunub və Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasına dair Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında İslamdaxili həmrəylik, İslam və digər konfessiyalar arasında həmrəylik istiqamətləri üzrə ölkə daxilində və xaricdə keçirilməsi nəzərdə tutulan tədbirlər öz əksini tapıb. Qeyd edilənlərə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) digər qurumlarla birgə "İslam Həmrəyliyi İli" çərçivəsində iyul ayı ərzində bir sıra tədbirlər keçirib. Bu qəbildən olan tədbirlər:

İyulun 1-də DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Regional Mədəniyyət və Turizm idarəsinin birgə təşkilatçılığı ilə Rəhim Tağıyev adına Masallı rayon Tarix-diyarşünaslıq muzeyində "Müasir gəncliyin tərbiyəsində İslamın rolu" mövzusunda;



İyulun 11-də DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və "Yeni Üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyinin birgə təşkilatçılığı ilə Masallı şəhər Gənclər Mərkəzində "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda;

İyulun 26-da DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Xaçmaz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Xaçmaz rayonunda "Dini sahədə nailiyyətlər və uğurlar" mövzusunda baş tutub.

Təşkilatçı qurumların əməkdaşlarının, dini icma sədrləri, din xadimləri, rayonun təhsil və mədəniyyət işçiləri, gənclərin iştirakı ilə keçirilən tədbirlərdə maarifləndirmə sahəsində təşkil olunan bu cür tədbirlərin əhəmiyyətinə toxunulub. Xüsusilə vurğulanıb ki, radikallığa meyillənmə hallarının azalmasında məhz dini sahədə həyata keçirilən belə tədbirlər böyük rol oynayır.

Çıxışlarda islami dəyərlərdən söhbət açılıb, müasir gəncliyin tərbiyəsində milli-mənəvi dəyərlərin rolunun önəmindən danışılıb. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi ölkəmizdə mövcud olan davamlı inkişafın və sabitliyin qorunmasının uğurlu zəmanətidir. İslam həmrəyliyinin təbliği həm də milli təhlükəsizliyimizə böyük töhfədir.

Tədbirlərin sonunda mövzu ilə bağlı müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# Ölkədəki dini konfessiyaların rəhbərləri beynəlxalq təşkilatlara və dini liderlərə müraciət ünvanlayıblar

İyulun 6-da Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri beynəlxalq təşkilatlara və dünya dini liderlərinə müraciət ünvanlayıblar. Müraciəti Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili imzalayıb.

Bununla bağlı Dövlət Komitəsində keçirilən görüşdə bildirilib ki, müraciət ingilis dilinə tərcümə olunaraq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsilə beynəlxalq təşkilatlara, xarici ölkələrin Azərbaycandakı səfirliklərinə, eləcə də Moskva və Ümumrusiya Patriarxı Kirillə, Roma Papası Fransiskə, İstanbuldakı Fənər Rum Patriarxı I Varfolomeyə və digər dini liderlərə göndəriləcək.

***BMT-nin Baş Katibi cənab Antonio Quterreşə***
***Avropa Şurasının (Aİ) Prezidenti cənab Donald Tuska***
***Avropa Şurasının Baş katibi cənab Torbyorn Yaqlanda***
***ATƏT-in fəaliyyətdə olan sədri cənab Sebastyan Kurtsa***
***İƏT Baş katibi cənab Yusef Əl-Osaymenə***
***Dünya dini liderlərinə***

## MÜRACİƏT

Bu il iyulun 4-də Ermənistan tərəfindən atəşkəsin növbəti dəfə pozulması nəticəsində Azərbaycan Respublikasının döyüş bölgəsində Füzuli rayon sakini 2 yaşlı Zəhra Quliyeva və onun nənəsi Sahibə Allahverdiyeva qətlə yetirilmişdir. İstər bəşəri, istərsə də ilahi qanunlarda günahsız insanların, xüsusilə də uşaqların qətli ən ağır cinayət hesab edilir. Təəssüflə qeyd edirik ki, 2 yaşlı Zəhra terrorun ilk qurbanı deyil. 2011-ci ildə Ağdam şəhərindən olan 9 yaşlı Fariz Bədəlov snayper atəşi nəticəsində həlak olmuşdur. Ümumilikdə, 1994-cü ildə Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında razılaşma əldə edildikdən sonra 33 uşaq terrora məruz qalmışdır. Onlardan 14-ü dünyasını dəyişmiş, 19-u isə yaralanmışdır.

Biz - Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri iyulun 4-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən Füzuli rayonunun Alxanlı kəndinin dinc əhalisini və yaşayış yerlərini qəsdən məhv etmək məqsədilə mina və qumbaraatanlarla atəşə tutaraq növbəti təxribat törətməsini qətiyyətlə pisləyir və beynəlxalq təşkilatları, o cümlədən BMT-ni, Avropa İttifaqını, Avropa Şurasını, ATƏT-in Minsk qrupunu, İslam Əməkdaşlıq Təşkilatını və dünya dini liderlərini mülki şəxsləri, məsum körpələri, qadın və qocaları hədəf seçən bu terror və vandalizm cinayətini törədənlərin tezliklə cəzalandırılması istiqamətində səylərini birləşdirməyə çağırırıq.

Dinc əhaliyə qarşı silah işlədilməsi Ermənistan dövlətinin 25 ildən artıq davam edən hərbi təcavüzünün, Azərbaycan xalqına qarşı həyata keçirilən etnik təmizləmə və terror aktlarının davamıdır. Atəşkəs elan edilməsinə rəğmən mülki əhalinin mütəmadi atəşə tutulması, qətlə yetirilməsi, ölüm təhlükəsi altında yaşamağa məcbur qoyulması beynəlxalq müstəvidə təcavüzkara qarşı münasibəti kökündən dəyişməyin, "pisləmək", "baş verənlərdən narahatlıq keçirmək" kimi növbətçi açıqlamalardan qətiyyətli addımlar atmaq mərhələsinə keçməyin vaxtının çoxdan çatdığını bir daha sübuta yetirir.

Ötən ilin aprel ayında təmas xəttində baş verən təxribatlar zamanı Ali Baş Komandan Prezident İlham Əliyevin ətrafında sıx birləşmiş Azərbaycan xalqının ordu və dövlətlə birliyini, qalibiyyət əzmini, Haqq, ədalətin bərpası, Vətən torpağı uğrunda hər an şəhid olmağa hazır olduğunu bütün dünya gördü. Bu reallıq 25 ildən artıq davam edən, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan tərəflərin nəzərə almalı olduğu mühüm məqamdır. İşğalçı ilə işğala məruz qalan tərəfi eyniləşdirmək münaqişənin həllinə xidmət edə bilməz. Beynəlxalq hüquq və normalara riayət istisnasız olaraq hamının borcudur.

Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair beynəlxalq səyləri dəstəkləyirik. O Bir Olan Yaradanımız qarşısında, xalqlarımız qarşısında məsuliyyətimiz biz, dini konfessiya rəhbərlərini sülh və mövcud problemlərin ədalətli həlli naminə səyləri dəstəkləməyə sövq edir. Mübahisəli məsələlərin hərbi yolla həllinə qayıtmağa yol verməmək, heç şübhəsiz, həyati əhəmiyyət kəsb edir. Lakin sülh və anlaşmaya nail olmağın yolu asan deyil və çoxlu zəhmət, güclü iradə, səylərin birləşdirilməsini tələb edir. Sülhməramlı dialoqun davamı da bölgədə xalqlarımızın dinc yanaşı yaşamasına, danışıqlar yolu ilə qarşılıqlı qəbul olunan, ən mühümü, ədalətli sülhü bərqərar edəcək qərarların hazırlanmasına xidmət etməlidir. Lakin, təəssüflər olsun ki, erməni tərəfinin təxribatları münaqişənin sülh yolu ilə həll olunması istiqamətində danışıqlar prosesinin pozulmasına gətirib çıxarır.

Biz bir daha bu hadisəni qətiyyətlə pisləyir, dinc insanların, qadın, uşaq, qocaların məhvi kimi bağışlanmaz cinayətlərə heç bir bəraət olmadığını bəyan edirik. Bu, Yaradanımız və xalqlarımız qarşısında məsuliyyət və borcumuzdur. Belə ki, bütün səmavi dinlər dinc, günahsız insanların, məsum körpələrin qətlini ən ağır cinayət kimi qiymətləndirir.

Biz beynəlxalq ictimaiyyəti dinc insanların qətli kimi qəbuledilməz bir hala qarşı öz qətiyyətli münasibətini bildirməyə, təcavüz və təxribat hallarını kəskin qınamağa çağırır, bu kimi halların qarşısının alınması, ədalətli sülhün bərqərarı naminə səyləri birləşdirməyə çağırırıq.

**Şeyxülislam Allahşükür PAŞAZADƏ**
**Qafqaz Müsəlmanları İdarəsinin sədri**

**ALEKSANDR**
**Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu**

**Vladimir FEKETE**
**Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi**

**Milix YEVDAYEV,**
**Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri**

**Robert MOBİLİ**
**Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri**

**Bakı şəhəri, 6 iyul 2017-ci il**

# QISA-QISA

İyulun 7-də Sabirabad rayonu "Heydər" məscidində Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində mülki şəxslərin ölümü ilə nəticələnmiş hadisə ilə bağlı tədbir keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) İmişli bölgəsi üzrə şöbəsinin müdiri Cavanşir Bəhrəmov, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sabirabad rayonu üzrə səlahiyyətli nümayəndəsi Ağakərim Sadıqov, Sabirabad rayonu "Heydər" məscidinin axund müavini Yusif Bağırov, dini icma sədrləri və rayon dindarlarının iştirak etdiyi tədbirdə qeyd olunub ki, bu faciə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı 25 ildən artıq davam edən, minlərlə günahsız insanın həyatına son qoyan, tarixi, dini və mədəni abidələrimizin tam dağıdılması, yer üzündən silinməsi ilə nəticələnmiş hərbi təcavüz, etnik təmizləmə və terror aktlarının davamıdır.



Tədbirdə icma sədrlərindən Zakir Əliyev, Əliqardaş İbrahimov, Əlivan Nuriyev və başqaları bu qanlı hadisəni qətiyyətlə pisləyib, öz etirazlarını bildiriblər.

* * *

İyulun 10-da Göyçay şəhər "Mərkəz" məscidində də Alıxanlı kənd sakinləri Sahibə Quliyeva və onun 2 yaşlı nəvəsi Zəhra Quliyevanın həlak olması, digər mülki şəxs Səlminaz Quliyevanın ağır yaralanması ilə nəticələnmiş hadisə ilə bağlı tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin



əməkdaşları, Göyçay rayonunda fəaliyyət göstərən dini icma sədrləri və din xadimləri iştirak ediblər.

Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərlərinin beynəlxalq təşkilatlara və dünya dini liderlərinə ünvanladıqları müraciətin oxunduğu tədbirdə vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirələri yad olunub, onların şəninə Quran oxunaraq, ruhları üçün dualar edilib.

* * *

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin DQİDK ilə birgə hazırladığı Tədbirlər Planına əsasən məhkumların vicdan və dini etiqad azadlığının təmin edilməsi məqsədilə cəzaçəkmə müəssisələrində dini maarifləndirmə tədbirləri davam etdirilir.

Növbəti maarifləndirici tədbir Penitensiar Xidmətin 8 və 13 saylı cəzaçəkmə müəssisələrində "Azərbaycanda birgəyaşayış ənənələri" mövzusunda keçirilib.

Tədbirdə DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə, AMEA-nın Z.Bunyadov adına Şərqşünaslıq İnstitutunun elmi işçisi



Elvüsal Məmmədov və Penitensiar Xidmətin əməkdaşları iştirak ediblər.

Çıxışlarda xalqımızın tolerantlıq ənənələri və multikultural dəyərlərinin əhəmiyyətindən, ölkədəki dini durumdan danışılıb. Radikalizmin yaranmasının səbəbləri və təzahür formaları, ona qarşı mübarizə metodologiyası barədə məlumat verilib.

* * *

İyulun 18-də Nəsimi və Quba Rayon İcra Hakimiyyətlərinin (RİH) birgə təşkilatçılığı və DQİDK-nın dəstəyi ilə Qubada "Gənc İlhamçılar" yay düşərgəsi iştirakçıları üçün "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" mövzusunda seminar-treninq keçirilib.

Seminar-treninqdə DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin əməkdaşı Elnur Ağasıyev, Nəsimi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Emin Hüseynov və gənclər iştirak ediblər.

Tədbirdə gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlərin xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb və Dövlət Komitəsinin dəstəyi ilə çap edilən müvafiq dini ədəbiyyat təqdim olunub.

* * *

İyulun 21-də DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi YAP Masallı rayon təşkilatı ilə birlikdə "İslam həmrəyliyi birlik və bərabərliyimizin ən ali tərənnümüdür" mövzusunda tədbir keçirilib.



Tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşları, YAP Masallı rayon təşkilatının rəhbərliyi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Masallı Rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, müasir Azərbaycanda mükəmməl dövlət-din münasibətləri sisteminin formalaşması və tətbiqi müstəqil dövlətimizin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi zamanın çağırışlarına cavab verən düşünülmüş təşəbbüsdür.

DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşı Elvin Hüseynli də öz çıxışında Azərbaycanın dünyada sülhün və həmrəyliyin möhkəmlənməsinə verdiyi töhfələrdən danışıb.

* * *

Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə DQİDK arasında imzalanmış Tədbirlər Planı çərçivəsində 6 və 15 saylı cəzaçəkmə müəssisələrində keçirilən maarifləndirici tədbirlərdə Penitensiar Xidmətin Tərbiyə işinin təşkili idarəsinin məsul əməkdaşı Mübariz Vəliyev, DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov və QMİ-nin Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndəsi, "Məşədi Dadaş" məscidinin axundu Hacı Şahin Həsənli iştirak ediblər.

Qonaqlar məhkumlara dini etiqadlarını həyata keçirmək üçün müəssisədə yaradılmış şəraitlə tanış olublar. Bildirilib ki, məhkumlar üçün müəssisədə məscidlərlə yanaşı, 15 saylı cəzaçəkmə müəssisəsində pravoslav xristianların mənəvi tələbatlarını həyata keçirmək üçün ibadət evi də fəaliyyət göstərir. Mütəmadi olaraq Rus Pravoslav kilsəsinin ruhaniləri müəssisəyə baş çəkir və dini ayinləri icra edirlər. Eyni zamanda, müəssisələrdə kitabxanaların da fəaliyyət göstərdiyi və məhkumların Dövlət Komitəsinin müvafiq razılığı ilə çap edilən dini ədəbiyyatlardan geniş istifadə etdikləri diqqətə çatdırılıb.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Dəyişiklik

**"Yeni Həyat" Xristian incil dini icması**
**Qeydiyyat tarixi: 25 noyabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 34**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Pənahov Emil Bəxtiyar oğlu, Əlizadə Elmir Çingiz oğlu, Çernova Lyudmila Aleksandrovna, Abayeva Neilya Fatixovna, Kazimova Aza Şixbalayevna, Pənahova Səbinə Qəzənfər qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, İbrahimov Rafiq Nəcəfqulu oğlu, Əhmədov Kamran Əli oğlu, Hüseynova Elmira Tofiq qızı, İsmayılova Səbinə İlham qızı, Hüseynov Rasim Müslüm oğlu, Səmədova Esmira Məhəmməd qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**06 iyul 2017-ci il**

---

**Salyan rayonu Ərəbqardaşbəyli kəndi "Keçmiş Ərəbbəbirxanlı" məscidi dini icması**
**Qeydiyyat tarixi: 19 aprel 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 300**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Kamil Lətif oğlu, İsmayılov Abdulla Əlihəsən oğlu, Həbiyev Həbi Məhəmməd oğlu, Gözəlov Aləddin Ağadədə oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Səfərov Əli Əlihüseyn oğlu, Həbiyev Rafiq Həbi oğlu, Hüseynov Xanhüseyn Qulamhüseyn oğlu, Molanov Canıbəy Sahib oğlu, İsmayılov Elamid Abdulla oğlu, Hüseynov Anar Kamil oğlu, Səfərova Zəminə Əlipaşa qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Səfərov Adbala Əli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Səfərov Əli Əlihüseyn oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**06 iyul 2017-ci il**

---

**Bakı şəhəri Xəzər rayonu Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 18 iyul 2016-cı il**
**Qeydiyyat №-si: 100116B – 669**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Aslanov Aslan Atababa oğlu, Quliyev Vahid Qiyas oğlu, Kərimov Şahab Camal oğlu, Əskərov Yusuf Əskər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Nizamov Pərvin Şahid oğlu, Cəlilov Rəşad Kamil oğlu, Babayev Rahim Rafiq oğlu, Əliyev Zamin Səfər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Əskərov Yusuf Əskər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Babayev Rahim Rafiq oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**21 iyul 2017-ci il**

---

**Qax rayonu "Mərkəzi Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A3 – 103**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Midhad Seyfəddin oğlu, Nəzərov Süleyman İbrahim oğlu, Məmmədtahirov Xəlil Məmmədtahir oğlu, Qaracayev Şaban Əhməd oğlu, Novruzov Oruc Əyyub oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Bayramov Şakir Oruc oğlu, Əliyev İqbal Əhməd oğlu, Ömərov Vidadi Rəsul oğlu, Laçınov Sənan Süleyman oğlu, Məmmədov Elmar Hənif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**21 iyul 2017-ci il**

---

**Qəbələ rayonu Bunud kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 14 may 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 – 365**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abduləzizov Firdovsi Xulisi oğlu, İsmayılov Nəriman Cəbrayıl oğlu, Əzizov Müseyib Məcid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, İsmayılov Əlvan Nəriman oğlu, Musayev Qismət Eyvaz oğlu, İsmayılov İsmayıl Kamal oğlu, Həmidov Hidayət Şahismayıl oğlu, Vəliyev Zaur Ələskər oğlu, İsayev Abdulaziz Abdulhəmid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Səfərov Adbala Əli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Səfərov Əli Əlihüseyn oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**21 iyul 2017-ci il**

---

## Ləğv olunan dini icmalar

**Bakı şəhəri Nizami rayonu "2524 məhəllə" dini icması**
**Qeydiyyat tarixi: 03.07.2002-ci il**
**Qeydiyyat №-si: 136**

Bakı şəhəri Nizami rayonu "2524 məhəllə" dini icması təsisçilərinin 12.05.2017-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması:**
**11 iyul 2017-ci ildə qeydə alınıb.**

---

**Zərdab rayonu Otmanoba kənd dini icması**
**Qeydiyyat tarixi: 05.02.2004-cü il**
**Qeydiyyat №-si: 238**

Zərdab rayonu Otmanoba kənd dini icması təsisçilərinin 22.05.2017-ci il tarixli, 02 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması:**
**24 iyul 2017-ci ildə qeydə alınıb.**

---

## Elan

Sabunçu rayonu Kürdəxanı qəsəbə dini icması (29.10.2003-cü il tarixli, 216 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 24 iyul 2017-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

---

Lənkəran rayonu Horavenc kənd məscidi dini icması (10.11.2006-cı il tarixli, 1306Lə1-367 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 25 iyul 2017-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

# CƏMİYYƏT və DİN

№ 7 (312) / İYUL 2017-ci il


## Yaxın 30 ildə bəşəriyyət Aya köçəcək?



Britaniyalı fizik S.Hokinq ilk olaraq Ayda baza yaratmaq təklifini verib. "Mən əminəm ki, insanlar Yeri tərk etməlidirlər. O, getdikcə bizim üçün çox kiçik olur və bizim fiziki resurslarımız həyəcanlı templərlə əldən düşür", - deyə Hokinq Norveçdə keçirilən Starmus IV beynəlxalq elm və incəsənət festivalında çıxışı zamanı bildirib.

O qeyd edib ki, bir sıra faktorlar, o cümlədən qlobal istiləşmə və asteroid düşməsi Yerdə həyat üçün təhlükə yaradır. Alim kosmosun fəthini Xristofor Kolumbun Amerikanı kəşfi ilə müqayisə edib.

## Wi-Fi EMOSİYALARI MÜƏYYƏNLƏŞDİRƏCƏK

Massaçusets Texnologiya İnstitutunun (MIT) alimləri "Wi-Fi" şəbəkəsi və süni intellekt vasitəsilə insanın keçirdiyi hissləri müəyyənləşdirməyə imkan verən alqoritm yaradıblar.



"EQ Radio" adlanan sistem elektrokardioqram cihazı kimi işləyir: radiotezlik şüalandırıcısı ürək əzələsinin yığılmasını aşkarlayır, süni intellekt isə əldə olunan informasiyanı interpretasiya edir.

"EQ Radio" sistemindən "Google Home" və ya "Apple HomePod" kimi "ağıllı" kolonkalarda istifadə etmək mümkündür. "Emosiyalar detektoru" insanın nə vaxt stress keçirdiyini müəyyənləşdirərək sakitləşdirici musiqini işə salır. Bundan başqa, sistem qocalarda ürək tutmasını vaxtında aşkarlamağa, eləcə də yatmış körpənin ürək döyüntüsünün nəbzini və sayını izləməyə kömək edəcək.

## Yuxulamağın qarşısını alacaq bilərzik hazırlanıb



"STEER" adlanan kiçikölçülü qurğu sürücülərin yorulduqları zaman yuxulamalarının qarşısını alaraq özlərinin və ətrafdakı insanların həyatını avtomobil qəzası təhlükəsindən qorumaq məqsədilə tərtib edilib.

Məlumata görə, bilərzik real vaxt rejimində sürücünün ürək döyüntüsünü və dərisinin elektrik keçiricilik qabiliyyətini monitorinq edən 15 ötürücü ilə təchiz edilib. Oxşar ötürücülərdən poliqraflarda istifadə olunur. Qurğu sürücünün yorğunluğunun onun həyatı üçün təhlükəli səviyyəyə çatmasını müəyyənləşdirən zaman bilərzik onun əlinə az miqdarda elektrik enerjisi ötürəcək. Bu, insanı yuxudan ayıltmağa və ona özünə gəlməyə kömək edəcək. Cərəyan zərbəsindən sonra orqanizmdə serotonin, noradrenalin və kortizol səviyyəsi yüksəlir, yuxu hormonu melatonin isə, əksinə, azalır.

Qeyd edək ki, sürücünün orqanizminin vəziyyətini daim izləyərək onu təhlükədən qoruyacaq qurğunun akkumulyatorunu bir dəfə enerji ilə doldurmaqla 2 həftə istifadə etmək mümkündür. Bilərziyin ilkin qiyməti 99 dollar təşkil edir, payızda qiymətin 199 dollaradək bahalaşacağı gözlənilir.

### Yadigar söz

Məhəmməd peyğəmbər (s)

**Ən böyük sədəqə - biliyi bilməyənlər arasında yaymaqdır.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (İyul - 2017)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:02 | 05:37 | 12:47 | 17:48 | 20:11 | 21:24 |
| 2 | 04:03 | 05:38 | 12:47 | 17:48 | 20:10 | 21:23 |
| 3 | 04:04 | 05:39 | 12:47 | 17:47 | 20:09 | 21:21 |
| 4 | 04:06 | 05:40 | 12:47 | 17:46 | 20:08 | 21:20 |
| 5 | 04:07 | 05:41 | 12:46 | 17:46 | 20:07 | 21:18 |
| 6 | 04:09 | 05:42 | 12:46 | 17:45 | 20:06 | 21:17 |
| 7 | 04:10 | 05:43 | 12:46 | 17:44 | 20:04 | 21:15 |
| 8 | 04:11 | 05:44 | 12:46 | 17:43 | 20:03 | 21:13 |
| 9 | 04:13 | 05:45 | 12:46 | 17:43 | 20:02 | 21:12 |
| 10 | 04:14 | 05:46 | 12:46 | 17:42 | 20:00 | 21:10 |
| 11 | 04:15 | 05:47 | 12:46 | 17:41 | 19:59 | 21:09 |
| 12 | 04:17 | 05:48 | 12:46 | 17:40 | 19:58 | 21:07 |
| 13 | 04:18 | 05:49 | 12:45 | 17:39 | 19:56 | 21:05 |
| 14 | 04:19 | 05:50 | 12:45 | 17:38 | 19:55 | 21:04 |
| 15 | 04:21 | 05:51 | 12:45 | 17:37 | 19:54 | 21:02 |
| 16 | 04:22 | 05:52 | 12:45 | 17:36 | 19:52 | 21:00 |
| 17 | 04:23 | 05:53 | 12:45 | 17:36 | 19:51 | 20:59 |
| 18 | 04:25 | 05:54 | 12:44 | 17:35 | 19:49 | 20:57 |
| 19 | 04:26 | 05:55 | 12:44 | 17:34 | 19:48 | 20:55 |
| 20 | 04:27 | 05:56 | 12:44 | 17:33 | 19:46 | 20:53 |
| 21 | 04:29 | 05:57 | 12:44 | 17:31 | 19:45 | 20:52 |
| 22 | 04:30 | 05:58 | 12:43 | 17:30 | 19:43 | 20:50 |
| 23 | 04:31 | 05:59 | 12:43 | 17:29 | 19:42 | 20:48 |
| 24 | 04:33 | 06:00 | 12:43 | 17:28 | 19:40 | 20:46 |
| 25 | 04:34 | 06:00 | 12:43 | 17:27 | 19:39 | 20:44 |
| 26 | 04:35 | 06:01 | 12:42 | 17:26 | 19:37 | 20:43 |
| 27 | 04:36 | 06:02 | 12:42 | 17:25 | 19:36 | 20:41 |
| 28 | 04:38 | 06:03 | 12:42 | 17:24 | 19:34 | 20:39 |
| 29 | 04:39 | 06:04 | 12:41 | 17:23 | 19:33 | 20:37 |
| 30 | 04:40 | 06:05 | 12:41 | 17:21 | 19:31 | 20:35 |
| 31 | 04:41 | 06:06 | 12:41 | 17:20 | 19:29 | 20:34 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4**, Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6**, Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8**, Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Sifarişləri mənzil başına dronlar çatdıracaq

Birləşmiş Ərəb Əmirliklərinin "GulfNews" nəşrinin yazdığına görə, Dubayda yeni texnologiya - yeməyin və fərdi sifarişlərin pilotsuz uçuş aparatlarının köməyi ilə mənzil başına çatdırılması texnologiyası sınaqdan çıxarılacaq.



Gözlənildiyinə görə, yerli "Space Autonomous Drones" və ABŞ-ın "Skycart" şirkətləri tərəfindən işlənib hazırlanmış "ağıllı xidmət" logistika servisində çevriliş edəcək. Dronlar supermarket və restoranlardan çəkisi beş kiloqramdan çox olmayan malları sifarişdən sonra bir göz qırpımında bütün BƏƏ ərazisi boyu mənzil başına çatdıracaq.

Bildirilir ki, servis rəsmi surətdə 2018-ci və ya 2019-cu ildə işə salınacaq.

## Dünyanın ən isti bölgəsi



Liviyanın Əl-Əziziyə şəhəri 90 il boyunca dünyanın ən isti bölgəsi sayılıb. 1922-ci il sentyabrın 13-də bu şəhərdə qeydə alınan 57,8 ndərəcə isti rekord göstərici hesab olunub. Lakin 2012-ci ildə həmin göstərici Dünya Meteorologiya Təşkilatı tərəfindən ləğv edilib. Buna səbəb ondan da yüksək hərarətin müşahidə olunduğu bölgələrin mövcudluğudur.

"listelist.com" saytı xəbər verir ki, dünyanın ən isti bölgəsi hazırda İran yaylasındakı Lut səhrası hesab olunur. Ön Asiyanın ən böyük və ən geniş yaylasında yerləşən həmin duzlu səhraya "boşluq çölü" də deyilir. 2004-2007-ci və 2009-cu illərdə Yer kürəsində ən isti temperatur burada qeydə alınıb. 2005-ci ildə müşahidə olunan 70,7° C temperatur isə yeni rekordu müəyyənləşdirib və planetin ən isti bölgəsi kimi təsdiq edilib. Canlıların yaşamadığı səhrada havanın orta illik temperatur göstəricisi 49,6° C, yay fəslində isə 58,3° C-yə bərabərdir.


Baş redaktor Səyyad ARAN

Redaksiya şurası: Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 345

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894